RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 28 (8907) ÇƏRŞƏNBƏ AXŞAMI, 8 fevral 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Sülh gündəliyini İLHAM ƏLİYEV müəyyən edir

## Azərbaycan-Ukrayna münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib



### Ukraynanın Prezidenti zati-aliləri cənab Volodimir Zelenskiyə

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Ukrayna arasında əlamətdar tarix - diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizi səmimiyyətlə təbrik edir, dost Ukrayna xalqına ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Diplomatik əlaqələrimiz otuz illik tarixə malik olsa da, xalqlarımızın əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələri mövcuddur. Məhz bu möhkəm təməllər üzərində qurulmuş münasibətlərimizin hazırkı səviyyəsi və gündən-günə genişlənməsi xüsusi məmnunluq doğurur.

Sevindirici haldır ki, bu illər ərzində qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimiz daha da inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, siyasi, iqtisadi, enerji və humanitar sahələrdə əməkdaşlığımızın əhatə dairəsi genişlənmişdir. Bu gün apardığımız yüksəksəviyyəli siyasi dialoq, çoxsaylı qarşılıqlı səfərlər, imzalanmış sənədlər, həyata keçirilən birgə layihələr, o cümlədən Hökumətlərarası Komissiyanın uğurlu fəaliyyəti əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyən edilməsində mühüm rol oynayır.

Əminəm ki, birgə səylərimizlə Azərbaycan-Ukrayna əlaqələrinin bundan sonra da möhkəmlənməsinə və genişlənməsinə nail olacağıq.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər, dost Ukrayna xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 fevral 2022-ci il*

## Avropa İttifaqı qalib Azərbaycanın regionda yaratdığı yeni reallıqları bölüşür

Xəbər verildiyi kimi, fevralın 4-də Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Emmanuel Makronun, Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda görüş keçirilib.

Bu görüşün gündəliyinə çıxarılan və müzakirə olunan məsələlər təsdiqləyir ki, Azərbaycan İkinci Qarabağ müharibəsindəki qələbəni postmüharibə dövründə də davam etdirir.

### Azərbaycanın milli maraqları tam təmin olunur

Bu görüş ilk növbədə Azərbaycanın 44 günlük müharibədən sonra yaranmış yeni reallıqlar fonunda öz milli maraq və mənafelərini qətiyyətlə təmin etdiyini bir daha nümayiş etdirdi. Təsadüfi deyil ki, ilk olaraq görüş iştirakçıları 2021-ci il dekabrın 14-də Brüsseldə keçirilmiş birgə görüşün əhəmiyyətini vurğulayıblar.

Xatırladaq ki, həmin görüşə dair Aİ Şurasının Prezidenti Şarl Mişelin bəyanatında Cənubi Qafqazda sülhün bərqərar olunması üçün Azərbaycanla Ermənistan arasında hərtərəfli sülh müqaviləsinin imzalanmasına çağırış edilib. Şarl Mişel bildirib ki, 2020-ci il 10 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr (Soçi) görüşləri və bəyanatlarından irəli gələn öhdəliklər yerinə yetirilməlidir.

Bəyanatda ilk dəfə olaraq Aİ-nin gündəliyinə itkin düşmüş şəxslər mövzusu daxil edilib, onların taleyinə aydınlıq gətirilməsinin zəruriliyi qeyd olunub. Həmçinin minatəmizləmə səylərinə, münaqişədən əziyyət çəkmiş insanlara, xüsusilə yenidənqurma fəaliyyətlərinə dəstək ifadə edilib. Habelə sərhədlərin demarkasiyası və delimitasiyası məsələsində Aİ tərəfindən məşvərətçi statusda dəstək veriləbiləcəyi vurğulanıb.

Şarl Mişel regionda kommunikasiya infrastrukturunun yaradılmasına, ölkələr arasında əlaqəni təmin edən xətlərin açılmasına və inkişaf etdirilməsinə Aİ-nin dəstəyini ifadə edib. Qurumun iqtisadi və investisiya resursları vasitəsilə bu layihələri dəstəkləyəcəyi də vurğulanıb. Bəyanatda dəmir yolu xəttinin çəkilməsi məsələsinə xüsusi toxunulub. Həmçinin dəmir yollarında gömrük və sərhəd nəzarətinin qarşılıqlılıq prinsipi əsasında təşkil olunacağı diqqətə çatdırılıb.

Aİ Şurasının Prezidenti bəyanatında "Dağlıq Qarabağ münaqişəsi", "status" kimi ifadələrdən istifadə etməyib. Minsk qrupunun da adı çəkilməyib. Bu da bir daha təsdiq edir ki, status məsələsi tarixin arxivinə gömülüb və Avropa İttifaqı da Azərbaycanın yaratdığı yeni reallıqları bölüşür.

*Ardı 4-cü səh.*

## Qardaşlığın müttəfiqlik təntənəsi

### Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyənin qanunverici orqanları tərəfindən təsdiqlənməsi ortaq təhlükəsizliyimizin hüquqi əsasıdır

"Bu gün Türkiyə-Azərbaycan əlaqələri ən yüksək zirvədədir". Prerzident İlham Əliyevin vurğuladığı kimi, dünyada ikinci belə nümunə yoxdur ki, iki ölkə bir-birinə bu qədər yaxın olsun, belə arxa-dayaq dursun.

Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət kimi xarakterizə etdiyi Azərbaycan-Türkiyə arasındakı qardaşlıq münasibətləri gündən-günə daha yüksək zirvələrə daşınır. Beynəlxalq platformalarda, dövlətlərimizlə bağlı istənilən məsələlərdə daim birlik nümayiş etdirərək, bir-birinə dayaq duran iki qardaş ölkə - Azərbaycan və Türkiyə dövlətçiliyimizə, xalqlarımızın varlığına qarşı təhdid olan terrorizmə, işğal siyasətinə qarşı birlikdə mübarizə aparır. Bütün bunlar iki ölkə arasındakı siyasi-diplomatik münasibətlərdən artıq, iki qardaş xalq arasındakı mənəvi bağlılığın göstəricisidir.

44 günlük Vətən müharibəsi zamanı da Azərbaycan Türkiyənin siyasi, mənəvi dəstəyini ən yüksək səviyyədə hiss etdi. Türkiyə müharibənin ilk anlarından etibarən Azərbaycanın haqlı davasının yanında olduğunu nümayiş etdirdi, son dərəcə böyük siyasi və mənəvi dəstək nümayiş etdirərək qardaşına dayaq oldu. Nə qədər beynəlxalq təzyiqlər olsa da, qardaş ölkə bu mövqeyindən bir addım belə geri çəkilmədi. Türkiyənin siyasi və mənəvi dəstəyi bu qələbənin qazanılmasında çox böyük rol oynadı.

*Ardı 4-cü səh.*

## Humanitar tədbirlərlə zəngin olan ötən il

Mədəniyyət tarixboyu dövlətlərin iqtisadi, siyasi, hərbi gücü ilə yanaşı addımlayıb. Ordunun hərb meydanında qazandığı zəfəri mədəniyyət öz misilsiz təsiri ilə daha da möhkəmləndirib. İnkişaf üçün yeni imkanlar açıb. Dövlətin ardıcıl uğurlarına zəmin hazırlayıb. Xalqı, ölkəni mədəniyyət işığında dünyaya tanıdıb və ona böyük hörmət qazandırıb.

Tarixdə ucsuz-bucaqsız ərazilər fəth etmiş elə imperiyalar olub ki, hazırda onların heç izi də qalmayıb. Amma bəşər mədəniyyətinə incilər qazandıran, özünü orada ifadə edən hər kəs bu gün də zəngin sərvətləri ilə birgə yüksəlir, inkişaf edir. Mədəniyyət ona dəstək verən hər bir topluma əbədiyyət qazandırır. Tarix boyunca onun yeni nailiyyətlərinə yol açır. Bu reallığı düzgün dəyərləndirən ölkə rəhbəri xalqımızın mədəni irsinin dünyada təbliği istiqamətində ardıcıl dövlət siyasətinin həyata keçirilməsinə daha çox üstünlük verir. Əlamətdar günləri heç zaman diqqətdən kənarda qoymayan Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı fərmanlar, sərəncamlar tarixi əhəmiyyəti ilə yanaşı, milli-mədəni irsimizə verilən yüksək qiymətdir.

Bəşəriyyət üçün bu nailiyyətləri yaradan faktlardan biri də ölkəmizdə keçirilən silsilə



beynəlxalq tədbirlər kimi, yanaşdığımız festivallar, mahnı müsabiqələri, qlobal mədəniyyətlərarası dialoq forumlarıdır. Bu forumlarda aparılan müzakirələrdir. Dünyanın nüfuzlu söz sahibləri arasında gedən fikir və ideya mübadilələridir. Əldə edilən razılaşmalardır. Bakıdan bütün bəşəriyyətə ünvanlanan çağırışlardır. Bu gün həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt məhz milli irsin təbliği, mədəniyyət abidələrinin, genofondun qorunmasıdır.

*Ardı 6-cı səh.*

## Ötən il texnoparklarda 2,4 milyard manatlıq məhsul istehsal olunub



Sənayeləşmədə ölkədə yaradılan texnoparkların əhəmiyyəti böyükdür. Çünki onlar yüksəkkeyfiyyətli məhsul hazırlamaq qabiliyyətinə malikdir. Buna elmin son nailiyyətlərindən və müasir texnologiyalardan istifadə etməklə nail olunur. Bakıda, eləcə də bölgələrdə texnoparkların və sənaye məhəllələrinin yaradılması istiqamətində böyük işlər görülür. Məqsəd yerli və xarici sahibkarlar üçün müxtəlif istiqamətlər üzrə yeni sənaye müəssisələrinin yaradılmasına kömək göstərməkdir.

*Bax: səh. 7*

## Ermənistanda orduya inam qalmayıb

### Hərbçilərin qeyri-müəyyən şəraitdə öz mövqelərindən yoxa çıxmaları adi hal alıb

Bu gün əhalisinin təbii artımı aşağı səviyyədə olan Ermənistanda ordu sıralarında xidmət etmək üçün ciddi çağırışçı problemi yaşanması heç kimə sirr deyil.

Son 30 ildə 2 milyona yaxın insanın Ermənistanı tərk etməsi bu sahədə vəziyyəti daha da ağırlaşdırıb.

Ermənistanda sayı sürətlə azalmaqda olan gənclər orduda xidmətdən yayınmaq üçün hər vasitəyə əl atırlar. Bunun ümdə səbəblərindən biri də ordunun işgəncə, ölüm, rüşvət, korrupsiya, özbaşınalıq mənbəyinə çevrilməsidir.

*Ardı 5-ci səh.*

## Səkkiz erməni hərbçisi qarşı tərəfə təhvil verilib

Azərbaycan Respublikası humanizm prinsipini rəhbər tutaraq, fevralın 7-də 8 nəfər erməniəsilli hərbi qulluqçunu Ermənistan tərəfinə qaytarıb.

Həmin şəxslərin bir qismi 2021-ci il noyabrın 16-da Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində törətdiyi təxribatın qarşısı alınarkən saxlanılan hərbi qulluqçulardır.

Bu barədə AZƏRTAC-a Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından məlumat verilib.

Azərbaycan tərəfinin humanitar xarakterli bu addımının əvəzində Ermənistan tərəfi birinci Ermənistan-Azərbaycan müharibəsində öldürülmüş və kütləvi məzarlıqlarda basdırılması ehtimal edilən hərbi və mülki Azərbaycan vətəndaşları haqqında məlumatları, habelə bu qəbildən olan kütləvi məzarlıqların yerləri barədə məlumatı Azərbaycan tərəfinə verməlidir.

Qeyd edək ki, cari il fevralın 4-də Fransa Respublikası Prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransanın Avropa İttifaqına sədrliyi qismində Prezident Emmanuel Makronun, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda keçirilmiş görüşdə Azərbaycan Respublikasının Prezidenti birinci Ermənistan-Azərbaycan müharibəsində itkin düşmüş vətəndaşlarımızın kütləvi məzarlıqlarının yerləşmə yerləri barədə məlumatın Azərbaycan tərəfinə verilməsinə dair məsələ qaldırıb. Ermənistan tərəfi isə bu məsələdə əməkdaşlıq edəcəyinə dair öhdəlik götürüb. Həmin məsələ Fransa Respublikasının Prezidenti Emmanuel Makron tərəfindən dəstəklənib.

**◆ Dünya gündəmi**

## II Elizabet növbəti kraliçanın adını açıqladı

### Böyük Britaniyada taxt-taca Kamilla Parker-Boulz sahiblənəcək

Böyük Britaniya Kraliçası II Elizabet "platin" yubileyini - taxt-taca sahib olmasının 70 illiyini qeyd edib. Bu münasibətlə Norfolkdakı Sandringem Haus iqamətgahında kral ziyafəti təşkil edilib. Orada II Elizabet növbəti kraliçanın adını açıqlayıb.

O, hökmranlığının 70 illiyinə həsr olunmuş yazılı müraciətində bildirib ki, şahzadə Çarlz Britaniyanın taxt-tacına yiyələnəndə kraliça-konsort titulunun Kornuol hersoginyası Kamillaya verilməsini səmimiyyətlə arzulayır.

*Ardı 8-ci səh.*

# 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda müasir texnologiyaların geniş tətbiqi, rəqəmsal inkişaf və kosmik sənaye quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. Ötən illərdə hərtərəfli dövlət dəstəyi ilə ölkədə kosmik sənaye üzrə müasir infrastruktur yaradılmış, informasiya təhlükəsizliyinin vacib komponenti olan telekommunikasiya peykləri orbitə buraxılmış, xarici dövlətlərin peyklərindən asılılıq aradan qaldırılmış və peyk xidmətlərinin ixracına başlanılmışdır. Mövcud peyk şəbəkəsi ölkəmizin suverenliyinin qorunması ilə yanaşı, onun sosial-iqtisadi inkişafına da mühüm dəstək verir. Uğurlu peyk layihələri sayəsində Azərbaycan dünya kosmik ailəsinin bir üzvünə çevrilərək beynəlxalq kosmik icmada böyük nüfuz qazanmışdır.

Kosmik sənaye və peyk xidmətləri sahəsində əldə edilmiş təcrübənin, formalaşmış yeni insan kapitalı və etibarlı tərəfdaş imicinin təzahürü olaraq Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququ qazanmışdır. İlk dəfə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə - 1973-cü ildə Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresinə 50 il sonra Azərbaycanın yenidən evsahibliyi etməsi böyük rəmzi məna daşıyır.

Dünya miqyasında ən mötəbər tədbirlərdən biri olan bu Beynəlxalq Konqresin ikinci dəfə Azərbaycanda keçirilməsi ölkəmizdə kosmik sənayenin inkişafına, beynəlxalq kosmik icma və onu təmsil edən Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsinə, habelə qlobal kosmos sənayesinə daha yaxından inteqrasiya istiqamətində əvəzolunmaz imkanlar yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü il oktyabrın 2-6-da Bakı şəhərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Azərbaycan Respublikasının Baş naziri

**Təşkilat Komitəsi sədrinin müavini**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**Təşkilat Komitəsinin üzvləri**

Azərbaycan Respublikasının xarici işlər naziri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının fövqəladə hallar naziri
Azərbaycan Respublikasının səhiyyə naziri
Azərbaycan Respublikasının mədəniyyət naziri
Azərbaycan Respublikasının təhsil naziri
Azərbaycan Respublikasının gənclər və idman naziri
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı
Azərbaycan Respublikası Kosmik Agentliyinin (“Azərkosmos”) İdarə Heyətinin sədri
“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti
“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri
Heydər Əliyev Mərkəzinin direktoru
Bakı Konqres Mərkəzinin direktoru.

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü il oktyabrın 2-6-da Bakı şəhərində keçirilməsinə dair Tədbirlər Planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2022-ci il*

# Bakı şəhərinin inzibati ərazisində nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkili, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, habelə bu sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Bakı Nəqliyyat Agentliyi (bundan sonra - Agentlik) publik hüquqi şəxs statusu ilə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyinə verilsin.

2. Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Agentliyin yenidən təşkil və ləğv edilməsi;

2.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.2.2. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Agentliyin idarəetmə orqanlarının yaradılması;

2.2.3. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Agentliyin işçilərinin say həddinin təsdiqi;

2.2.4. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə uyğun olaraq Agentliyin mənfəətinin dövlət büdcəsinə köçürülməsi barədə qərar qəbul edilməsi;

2.3. Bakı Şəhər İcra Hakimiyyətinə:

2.3.1. bu Fərmanın 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulmuş hallar istisna olmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. Agentliyin tabeliyində olan “Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikası Daxili İşlər Nazirlyinin tabeliyinə verilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Agentliyin yeni nizamnaməsini üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

4.2. bu Fərmanın 1-ci və 3-cü hissələri ilə əlaqədar olaraq Bakı şəhərinin inzibati ərazisində yol hərəkətinin təşkili, ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşıma və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində həyata keçirilən fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı normativ-hüquqi aktların layihələrini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. bu Fərmanın 3-cü hissəsinə uyğun olaraq Agentliyin balansında olan və “Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin funksiyalarının təmin edilməsi üçün zəruri olan dövlət əmlakının və maddi-texniki bazanın Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin balansına verilməsini bir ay müddətində təmin etsin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2022-ci il*

# Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mənzil Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612; 2011, № 12, maddə 1108; 2012, № 6, maddə 501; 2017, № 5, maddə 732, № 7, maddə 1298, № 11, maddə 2190; 2019, № 1, maddə 14, № 3, maddə 368, № 5, maddə 814, № 8, maddə 1375; 2020, № 6, maddə 670, № 7, maddə 832; 2021, № 8, maddə 894) 146.4-cü maddəsində “hallarda” sözündən sonra “və qaydada” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2021-ci il*

# Y.M.Həsənovun “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yaşar Məmmədəli oğlu Həsənov “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilsin.

2. “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyətinin sədri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası “Azəristiliktəchizat” Açıq Səhmdar Cəmiyyəti sədrinin müavini İlham Ata oğlu Mirzəliyevə həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2100; 2018, № 10, maddə 1991; 2019, № 4, maddə 644; 2020, № 1, maddə 5; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 dekabr tarixli 1556 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci böndə “Qayda” sözündən sonra “Azərbaycan Respublikası Mərkəzi Bankının, Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun, habelə” sözləri əlavə edilsin.

2. 3.1-ci bənddə “iyunun” sözü “dekabrın” sözü ilə əvəz edilsin.

3. 3.3-cü bənddə “cari il sentyabrın 15-dək növbəti” sözləri “növbəti il fevralın 1-dək həmin” sözləri ilə əvəz edilsin.

4. 4.2.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 4.2.6-cı yarımbənd əlavə edilsin:

“4.2.6. dövlətə məxsus olan kommersiya hüquqi şəxsin müşahidə (direktorlar) şurasının (olmadıqda icra orqanının), qeyri-kommersiya hüquqi şəxsin isə himayəçilər şurasının (olmadıqda icra orqanının) borcalmaya dair qərarı.”.

5. 4.11-ci bənddə “müvafiq” sözü “həmin razılığın şamil olunduğu ildən sonrakı” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2022-ci il*

# Azərbaycan Respublikası prokurorluq orqanlarının hərbi prokurorluq işçiləri olmayan hərbi qulluqçularının aylıq pul təminatının artırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası prokurorluq orqanlarının hərbi prokurorluq işçiləri olmayan hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası prokurorluq orqanlarının hərbi prokurorluq işçiləri olmayan hərbi qulluqçularının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Hərbi Prokurorluğu və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2022-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 fevral 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7, maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8, maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122, № 9, maddələr 1027, 1062; 2015, № 2, maddə 121, № 5, maddələr 521, 543, № 9, maddə 989; 2016, № 2 (II kitab), maddə 228, № 3, maddə 470, № 5, maddələr 869, 879, № 9, maddə 1464, № 10, maddə 1643, № 11, maddə 1816; 2017, № 2, maddələr 173, 185, № 5, maddələr 776, 817, № 8, maddə 1521; 2018, № 2, maddə 189, № 3, maddə 449, № 4, maddələr 662, 682, № 8, maddə 1688, № 9, maddə 1840, № 10, maddə 1985, № 11, maddə 2264, № 12 (I kitab), maddələr 2565, 2585; 2019, № 6, maddə 1009; 2020, № 6, maddə 705, № 11, maddə 1356; 2021, № 1, maddə 34, № 2, maddə 129) ilə təsdiq edilmiş “Giriş-çıxış və qeydiyyat” idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə”nin 11.15-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 11.16-cı bənd əlavə edilsin:

“11.16. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası - vətəndaşların müraciətlərinə baxılması, şəxslərin qəbulunun təşkili, əfvetmə, təltif, işçilərin şəxsi işlərinin elektron qaydada aparılması məqsədilə Azərbaycan Respublikası vətəndaşlarının şəxsiyyət vəsiqələri, ölkəyə gələn şəxslərin pasportları və digər sərhədkeçmə sənədləri, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaq hüququnu təsdiq edən sənədlər, o cümlədən qaçqın vəsiqəsi və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali komissarının Azərbaycan Respublikasındakı nümayəndəliyi tərəfindən himayəyə götürülmüş şəxslər üzrə məlumatlar.”.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 fevral 2022-ci il*

# Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə Su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyanın 15-ci iclası olub

Azərbaycan Respublikası Baş nazirinin müavini, Su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyanın sədri Şahin Mustafayevin rəhbərliyi ilə Komissiyanın 15-ci (onlayn) iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Prezidentinin 27.07.2020-ci il tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı”na əsasən, su və su təsərrüfatı obyektlərindən nəzarətdənkənar istifadənin aradan qaldırılması, uçotun təkmilləşdirilməsi və nəzarətin təmin edilməsi istiqamətində verilmiş tapşırıqların icrası ilə bağlı görülmüş tədbirlər barədə komissiyada təmsil olunan müvafiq dövlət qurumlarının, habelə aidiyyəti yerli icra hakimiyyəti orqanlarının məruzələri dinlənilib və müzakirələr aparılıb.

Müzakirələrin nəticəsinə əsasən, Mingəçevir Su Anbarından başlayaraq Kür çayının mənsəbinə qədər Kür çayı hövzəsi üzrə su ehtiyatlarından səmərəli və qənaətli istifadəni və məsələnin həllinə kompleks yanaşmanı təmin etmək məqsədilə inteqrasiyalı idarəetmə mexanizminin tətbiqinə dair komissiyada təmsil olunan müvafiq dövlət qurumlarına və aidiyyəti yerli icra hakimiyyəti orqanlarına zəruri tapşırıqlar verilib.

# Azərbaycanın xarici işlər naziri Türk Dövlətləri Təşkilatının baş katibi ilə görüşüb

Fevralın 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türk Dövlətləri Təşkilatının baş katibi Bağdad Amreyev ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Azərbaycanın Türk Dövlətləri Təşkilatı ilə əməkdaşlığa yüksək əhəmiyyət verdiyini qeyd edib və Türk Şurası Katibliyinin fəaliyyətini məmnunluqla vurğulayıb. Bölgədəki cari vəziyyətlə bağlı qarşı tərəfə məlumat verən nazir o cümlədən azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işlərindən bəhs edib. Bu xüsusda Türk Dövlətləri Təşkilatının üzv ölkələrinin infrastrukturun qurulması prosesində iştirakının önəmli olduğu qarşı tərəfin diqqətinə çatdırılıb.

Baş katib Bağdad Amreyev Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsində aktiv fəaliyyətini və dəstəyini məmnunluqla qeyd edib. Həmçinin o, Türk Dövlətləri Təşkilatının digər beynəlxalq və regional təşkilatlar ilə əməkdaşlıq perspektivlərindən danışıb. Görüşdə Türk Dövlətləri Təşkilatının gündəliyində olan digər məsələlər, habelə növbəti aylarda keçirilməsi nəzərdə tutulan görüşlər və tədbirlər barədə müzakirələr aparılıb.

# Azərbaycan və Ukrayna xarici işlər nazirləri arasında məktub mübadiləsi həyata keçirilib

Fevralın 6-da Azərbaycan Respublikası ilə Ukrayna arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ukrayna xarici işlər naziri Dmitro Kuleba arasında məktub mübadiləsi baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov 30 il ərzində qarşılıqlı maraqlar üzərində inkişaf edən və strateji səviyyəyə yüksələn münasibətlərimizin siyasi, iqtisadi-ticarət, mədəni humanitar sahələrdə möhkəmləndiyini, eləcə də regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu qeyd edib.

Azərbaycan və Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipinə sadiq qalaraq bir-birilərinin ərazi bütövlüyünü dəstəklədiyi vurğulanıb.

Nazir Ceyhun Bayramov bildirib ki, ölkələrimiz arasındakı münasibətlərin bugünkü səviyyəsi xalqlarımızın və dövlət başçılarımızın iradəsinə söykənir. Bu xüsusda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində - bu il yanvarın 14-də Ukraynaya səfərinin ikitərəfli əlaqələrə verilən önəmin göstəricisi kimi vurğulanıb.

Nazir iki ölkə arasında qarşılıqlı hörmət və etimada əsaslanan hərtərəfli strateji tərəfdaşlığın xalqlarımızın mənafeyinə uyğun olaraq yüksələn xətt üzrə daha da inkişaf edəcəyinə inamını ifadə edib.

Məktubunda dövlətlərimizin diplomatik münasibətlərimizin tarixini hələ bir əsr bundan öncə yazmağa başladığını, ötən müddət ərzində həm Ukraynada, həm də Azərbaycanda bir çox dəyişikliklər olduğunu qeyd edən nazir Kuleba yalnız dostluq, hörmət, xüsusilə də hər iki dövlətin suverenliyi və ərazi bütövlüyünə olan qarşılıqlı hörmətin dəyişməz qaldığını vurğulayıb.

Azərbaycanın Ukrayna üçün etibarlı strateji tərəfdaşı olaraq qaldığını qeyd edən nazir Ukrayna-Azərbaycan əməkdaşlığının, o cümlədən Xarici İşlər nazirlikləri səviyyəsində mövcud əməkdaşlığın bundan sonra da etimad və qarşılıqlı anlayış əsasları ilə səmərəli şəkildə inkişaf edəcəyinə, birgə səylərin beynəlxalq arenada iddialı məqsədlərimizin gerçəkləşməsinə təsir göstərəcəyinə əminliyini bildirib.

Nazirlər bir-birini təbrik edərək, iki dost xalqa sülh, əmin-amanlıq və rifah arzulayıblar.

# Ekoloji dayanıqlı texnologiyaların tətbiqi sayəsində “yaşıl iqtisadiyyat”a keçid mümkün olacaq

SOCAR-ın Ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin 8-ci iclası çərçivəsində keçirilən “Enerji keçidi - Karbohidrogen mənşəli yanacaqlardan və metan azaldılması tədbirlərindən karbon neytrallığına doğru: yollar, çağırışlar, qrafiklər” sessiyasında iştirak edib.



Şirkətdən AZƏRTAC-a bildirilib ki, SOCAR-ın Ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə çıxış edərək SOCAR-da iqlim dəyişmələrinə təsir edən qaz emissiyalarının azaldılması üzrə həyata keçirilmiş layihələr, Xəzər regionunda neft-qaz əməliyyatlarının ətraf mühitə təsirlərinin minimuma endirilməsi üzrə birgə əməkdaşlıq, dekarbonizasiya və aşağı karbonlu inkişaf strategiyası, enerji keçidi və alternativ enerji mənbələrindən istifadə sahəsində görülmüş işlər, habelə enerji daşıyıcısı kimi “mavi hidrogen” istehsalı və karbon neytrallığının təmin edilməsi üçün karbon qazının tutularaq, yeraltı strukturlarda saxlanması (“Carbon Capture and Storage” - CCS) kimi gələcəkdə planlaşdırılan innovativ layihələr haqqında iştirakçılara ətraflı məlumat verib.

R.Hüseynzadə çıxışı zamanı xüsusilə qeyd edib ki, ətraf mühitin mühafizəsi istiqamətində birgə əməkdaşlıq, ekoloji dayanıqlı texnologiyaların tətbiqi, habelə balanslaşdırılmış enerji keçidi sayəsində karbon neytrallığının təmin olunması və “yaşıl iqtisadiyyat”a keçid mümkün olacaq.

Tədbirin sonunda Nazirlərin 8-ci iclasının yekunlarına dair mətbuat konfransı keçirilib.

Xatırladaq ki, fevralın 4-də Bakıda “Gülüstan” sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin 8-ci toplantısı keçirilib.

Təbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov, Türkiyə Respublikasının Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz, Avropa Komissiyasının Enerji məsələləri üzrə Baş Direktorluğunun Enerji Siyasəti üzrə direktoru Kristina Lobilla Borrero, habelə ABŞ, Böyük Britaniya, İtaliya, Gürcüstan, Türkmənistan, Bolqarıstan, Albaniya, Serbiya, Macarıstan, Rumıniya, Şimali Makedoniya, Monteneqro, Xorvatiya, Bosniya və Herseqovina, Ukrayna və Moldovanın yüksəksəviyyəli dövlət və hökumət nümayəndələri iştirak ediblər.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin 8-ci iclası çərçivəsində “Cənub qaz dəhlizi: nailiyyətlər və perspektivlər - Balkan ölkələri də daxil olmaqla “Cənub qaz dəhlizi”nin yeni enerji bazarlarına doğru genişləndirilməsi” və “Enerji keçidi - Karbohidrogen mənşəli yanacaqlardan və metan azaldılması tədbirlərindən karbon neytrallığına doğru: yollar, çağırışlar, qrafiklər” mövzularına həsr olunmuş plenar sessiyalar keçirilib.

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Estoniyaya rəsmi səfəri başlayıb



Fevralın 6-da Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyətinin Estoniya Respublikasına rəsmi səfəri başlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətini Tallin Lennart Meri Hava Limanında Estoniyanın Azərbaycandakı səfiri xanım Anneli Kolk, ölkəmizin Estoniyadakı səfiri Anar Məhərrəmov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclis Sədrinin Estoniya Respublikasının prezidenti, parlamentin sədri və ölkənin digər rəsmi şəxsləri ilə görüşləri nəzərdə tutulub.

# *Eva-Maria LİİMETS:* "Estoniya Azərbaycanla münasibətləri daha da dərinləşdirmək niyyətindədir"

Estoniya Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova fevralın 7-də bu ölkənin xarici işlər naziri Eva-Maria Liimets ilə görüşüb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Eva-Maria Liimets Azərbaycan nümayəndə heyətini səmimiyyətlə salamlayaraq, qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin inkişafında xüsusi rolunu qeyd edib. O, Azərbaycanla Estoniya arasında münasibətlərin yaxşı səviyyədə olduğunu söyləyərək müxtəlif sahələrdə, o cümlədən təhsil, elektron idarəetmə və digər istiqamətlərdə uğurlu layihələrin həyata keçirildiyini bildirib.

Xarici işlər naziri ölkəsinin Azərbaycanla münasibətlərin daha da dərinləşməsində maraqlı olduğunu qeyd edərək, bu istiqamətdə qanunverici orqanların rolunu yüksək qiymətləndirib. O, ölkəsinin hər zaman Azərbaycanın ərazi bütövlüyünə dəstək verdiyini bildirərək, regionda sülh və təhlükəsizliyin təmin olunmasının vacibliyini qeyd edib. Nazir deyib ki, regionda bütün kommunikasiyaların bərpası sülh və təhlükəsizliyin təmin olunmasına böyük fayda gətirəcəkdir.

Səmimi görüşə və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Milli Məclisin Sədri Sahibə Qafarova dost və tərəfdaş ölkələr olan Azərbaycan ilə Estoniya arasında münasibətlərin inkişafından məmnunluğunu bildirib. O, ikitərəfli münasibətlərin inkişafında yüksəksəviyyəli səfərlərin, görüşlərin müstəsna rolunu qeyd edərək, bu kontekstdə Prezident İlham Əliyevin Estoniyaya dövlət səfərini, həmçinin Estoniya Prezidentinin Azərbaycana rəsmi səfərini vurğulayıb. S.Qafarova diqqətə çatdırıb ki, bu səfərlər zamanı prezidentlər tərəfindən imzalanmış birgə bəyannamələr ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da inkişafı üçün əsaslar yaradıb. Milli Məclisin Sədri qeyd edib ki, bu gün Azərbaycan və Estoniya nəqliyyat sahəsində əməkdaşlıq üçün geniş imkanlara malikdir. "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri Azərbaycandan keçir. Azərbaycan nəqliyyat infrastrukturuna çox böyük maliyyə resursları ayırıb. Zəngəzur dəhlizinin və regionda bütün kommunikasiyaların açılması bölgənin nəqliyyat potensialını xeyli artıracaq.

Estoniyanın Avropa İttifaqına üzvlüyünü nəzərə alaraq Azərbaycan ilə Aİ arasında əlaqələr haqqında məlumat verən Sahibə Qafarova deyib ki, Azərbaycan Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi üzrə danışıqların son mərhələsindədir və onun 90 faizdən çoxu artıq razılaşdırılıb. Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlıq da böyük əhəmiyyət kəsb edir. Azərbaycan neftlə yanaşı, "Cənub qaz dəhlizi" vasitəsilə Avropanın etibarlı qaz tədarükçüsünə çevrilib. Bu, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfədir.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbədən sonra regionda yaranan yeni reallıqlar barədə məlumat verən Milli Məclisin Sədri qeyd edib ki, bu Qələbə nəticəsində ölkəmiz ərazilərinin Ermənistan tərəfindən 30 illik işğalına son qoyaraq ərazi bütövlüyünü bərpa edib. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin, həmçinin beynəlxalq hüququn norma və prinsiplərinin icrasını təmin edib. Artıq münaqişənin tarixdə qaldığını deyən S.Qafarova Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi genişmiqyaslı quruculuq və bərpa işlərindən danışıb. Diqqətə çatdırıb ki, Ermənistan 30 il ərzində işğal altında saxladığı bütün şəhər və kəndlərimizi dağıdıb, tarixi, mədəni və dini abidələrimizi talan edib. Azərbaycan öz gücü və imkanları hesabına həmin əraziləri yenidən qurur. Milli Məclisin Sədri bir daha Azərbaycanın sülh istədiyini, sülh sazişinin imzalanması ilə bağlı bir sıra təkliflər verdiyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# *Yüri RATAS:* "Estoniya şirkətləri Azərbaycanda işğaldan azad olunmuş ərazilərin bərpasında iştirak etməkdə maraqlıdır"

Fevralın 7-də Milli Məclisin Sədri Sahibə Qafarova Estoniyaya rəsmi səfəri çərçivəsində bu ölkənin parlamentinin (Riigikoqu) sədri Yüri Ratas ilə görüşüb.







Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan nümayəndə heyətini salamlayan Estoniya parlamentinin sədri Azərbaycan və Estoniyanın dost ölkələr olduğunu bildirib. Estoniyanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdıran Yüri Ratas ölkəsinin Azərbaycanla müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğunu vurğulayıb. Yüri Ratas iki ölkə arasında münasibətlərin inkişafında qarşılıqlı səfərlərin xüsusi əhəmiyyətini qeyd edib, parlamentlərarası münasibətlərin daha da gücləndirilməsinin vacibliyindən danışıb.

O, Estoniyada yaşayan azərbaycanlıların ölkə cəmiyyətinə fəal inteqrasiyasından razılığını bildirərək, bunun xalqlarımız arasında əlaqələrə müsbət təsir etdiyini diqqətə çatdırıb. Həmçinin deyib ki, Estoniya şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə, o cümlədən işğaldan azad olunmuş ərazilərin bərpasında iştirak etməkdə maraqlıdır.

Öz növbəsində, Sahibə Qafarova Estoniyaya dəvətə və nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Milli Məclisin Sədri bu səfərin onun Azərbaycan parlamentinin sədri kimi Estoniyaya ilk rəsmi səfəri olduğunu qeyd edib. Ümidvar olduğunu bildirib ki, bu səfər ikitərəfli əlaqələrin, həmçinin parlamentlərarası münasibətlərin inkişafına töhfəsini verəcək.

Estoniyanın müstəqilliyinin 104-cü ildönümü münasibətilə təbriklərini çatdıran Milli Məclisin Sədri bildirib ki, bu il həm də Azərbaycan ilə Estoniya arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur. Bu illər ərzində ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edib.

Sahibə Qafarova qeyd edib ki, Azərbaycan ilə Estoniya arasında ikitərəfli və çoxtərəfli münasibətlərə müsbət təsir göstərən amillərdən biri də parlamentlər arasında mövcud olan uğurlu əməkdaşlıqdır. Bu gün qanunvericilik orqanlarımız arasında münasibətləri daha da dərinləşdirmək üçün yaxşı imkanlar var. Bu sahədə parlament dostluq qruplarının rolunu müsbət qiymətləndirən Milli Məclisin Sədri parlamentlərimizin beynəlxalq təşkilatlar çərçivəsindəki qarşılıqlı əməkdaşlığından razılığını ifadə edib.

Estoniya parlamentinin Azərbaycanla dostluq qrupunun nümayəndə heyətinin 2021-ci ilin noyabrında ölkəmizə səfərindən danışan S.Qafarova estoniyalı deputatların Ağdam şəhərində Ermənistanın törətdiyi vandallıqları gözləri ilə gördüklərini deyib. Azərbaycan parlamentinin rəhbəri dostluq qrupunun Xocalı soyqırımı, həmçinin ərazilərimizin işğaldan azad edilməsinin birinci ildönümü münasibətilə bəyanatlarının ölkəmizdə yüksək qiymətləndirildiyini vurğulayıb.

Söhbət zamanı Sahibə Qafarova 30-cu ildönümü yaxınlaşan Xocalı soyqırımı barədə ətraflı məlumat verib.

Milli Məclisin Sədri Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində qazandığı Qələbədən də danışaraq diqqətə çatdırıb ki, bu gün Ermənistanla Azərbaycan arasında münaqişə artıq mövcud deyil və 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla bu münaqişəyə son qoyulub. Artıq regionda yeni reallıq yaranıb. İndi müharibə yox, sülh və gələcək inkişaf haqqında danışılmalıdır və Ermənistan regionda yeni reallığı qəbul etməlidir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.





# Qurucu rəhbər, qlobal lider, müzəffər komandan



# Qardaşlığın müttəfiqlik təntənəsi

## Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyənin qanunverici orqanları tərəfindən təsdiqlənməsi ortaq təhlükəsizliyimizin hüquqi əsasıdır

*Əvvəli 1-ci səh.*

Fevralın 1-də, Milli Məclisin yaz sessiyasının ilk plenar iclasında, fevralın 3-də isə Türkiyə Böyük Millət Məclisində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi iki qardaş xalq arasında olan tarixi həmrəyliyin hər ötən gün daha da gücləndiyinin bariz göstəricisidir.

Ötən ilin 15 iyunu Azərbaycan Türkiyə əlaqələri tarixinə daha bir əlamətdar gün kimi yazıldı. Azərbaycan Prezidenti Türkiyə Prezidentini Qarabağda qarşıladı və hər bir azərbaycanlının mənəvi paytaxtı hesab olunan Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında möhtəşəm Şuşa Bəyannaməsi imzalandı.

Azərbaycanın qurtuluş günündə, tarixi Qars müqaviləsindən yüz il sonra iki qardaş ölkə arasında müttəfiqlik münasibətlərinə dair imzalanan möhtəşəm bəyannamə ilə əzəldən var olan münasibətlərimiz daha yüksək zirvəyə ucaldı.

Bəyannamədə göstərilən müddəalar da onu deməyə əsas verir ki, tarixən olduğu kimi, bundan sonra da qardaş Türkiyə hər zaman Azərbaycanın yanında olacaq. Bununla bağlı bəyanatda göstərilir: "Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur".

Şuşa Bəyannaməsində diqqətçəkən digər bir müddəa Silahlı Qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsinə aiddir. Sənəddə müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığın təmin edilməsi vurğulanır. Buraya həmçinin hər iki ölkənin təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafe, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması daxildir.

Göründüyü kimi, bir dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün təhdid edilməsi digəri üçün də təhdid kimi qəbul ediləcək və lazımi tədbirlərin həyata keçirilməsi öhdəçiliyini yaradacaq.

Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyənin qanunverici orqanları tərəfindən təsdiqlənməsi isə ortaq təhlükəsizliyimizin təmin olunması, başqa qüvvələrdən gələcək təhdidlərlə mübarizə baxımından hüquqi əsaslar formalaşdırdı. Beləliklə, Türkiyə-Azərbaycan müttəfiqliyi qanun səviyyəsində təsbit olundu.

Eyni zamanda sülh və əməkdaşlığı təşviq etməyə istiqamətlənmiş bu tarixi bəyannamə Azərbaycan və Türkiyənin regional güc mərkəzi kimi beynəlxalq səviyyədə mövqeyinin möhkəmlənməsini də təmin edəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Sülh gündəliyini İLHAM ƏLİYEV müəyyən edir

## Avropa İttifaqı qalib Azərbaycanın regionda yaratdığı yeni reallıqları bölüşür

*Əvvəli 1-ci səh.*

### Minsk qrupu proseslərdən kənardadır



Fevralın 4-də keçirilən görüş də Azərbaycanla Ermənistan arasında bütün proseslərin respublikamızın maraqlarına uyğun cərəyan etdiyini göstərdi. Məsələn, Emmanuel Makron bu görüşdə Fransanın Avropa İttifaqına sədrliyi qismində iştirak edirdi. Bu da bir daha təsdiq edirdi ki, 30 ilə yaxın bir dövrdə öz vəzifəsini yerinə yetirə bilməyən və ya yerinə yetirmək istəməyən Minsk qrupu artıq proseslərdən kənardadır. Ötən ay yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev bununla bağlı bildirmişdi: "Hesab edirəm ki, onlar özləri üçün bir gündəlik formalaşdırmalıdırlar. Bu, bizim işimiz deyil. Halbuki mənim təsəvvürüm var ki, onlar nə ilə məşğul olmalıdırlar və nə ilə məşğul olmamalıdırlar. Nə ilə məşğul olmamalıdırlar, mən deyə bilərəm. Onlar Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdırlar, çünki bu münaqişə həll olunub. Biz onların yerinə bu məsələni həll etdik. Onların görünməməsinin səbəbi də hesab edirəm ki, bundan qaynaqlanır. Çünki onlar üçün nə qədər çətin olsa da, bu yeni reallığı qəbul etməlidirlər. Bilməlidirlər ki, onlar bundan sonra Qarabağ məsələsi ilə məşğul olmayacaqlar. Çünki buna biz imkan verməyəcəyik. Biz bu münaqişənin bir tərəfi idik. Əgər bir tərəf deyir ki, bu münaqişə həll olunub, deməli, burada vasitəçiliyə yer qalmır və bizim mövqeyimiz onlara çatdırılıbdır. Nə ilə məşğul olacaqlar, yəqin ki, özləri fikirləşməlidirlər".

Beləliklə, fevralın 4-də keçirilən görüş bir daha Qarabağ mövzusunun tamamilə gündəlikdən çıxarıldığını göstərdi. Odur ki, görüşdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına dair müzakirələr keçirilib. Bu xüsusda, tədbirin əvvəlcədən müəyyən edilmiş gündəliyinə uyğun olaraq, iki ölkə arasında münasibətlərin müxtəlif aspektləri, o cümlədən humanitar məsələlər, etimad quruculuğu, Azərbaycanın üzləşdiyi mina problemi, kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, sülh sazişi üzrə danışıqların başlanması kimi məsələlərə dair fikir mübadiləsi aparılıb.

Görüşdə Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərin taleyinin, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi sahəsində Azərbaycana beynəlxalq dəstəyin artırılması, dəmir yolu və avtomobil yolu ilə nəqliyyat dəhlizinin açılması məsələsinə xüsusi olaraq toxunub. Azərbaycan Prezidenti Birinci Qarabağ müharibəsi zamanı 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə, 3890 Azərbaycan vətəndaşının itkin düşməsi faktını, o cümlədən Vətən müharibəsinin başa çatmasından sonra mina partlayışı nəticəsində 36 nəfər Azərbaycan vətəndaşının həlak olduğunu, 165 nəfərin isə yaralandığını diqqətə çatdırıb.

Bütövlükdə, ötən ilin dekabrında Brüsseldə təsbit olunmuş sülh gündəliyi davam edir. Bu gündəliyin əsasını Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Zəngəzur dəhlizinin açılması, itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, minaların təmizlənməsində Azərbaycana yardım və etimad quruculuğu kimi məsələləri özündə ehtiva edir. Bu baxımdan fevralın 4-də keçirilən görüş göstərdi ki, Prezident İlham Əliyev sülh gündəliyinin məzmununu müəyyən edir və Avropa İttifaqı qalib Azərbaycanın regionda yaratdığı yeni reallıqları bölüşür.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Qarabağın və Şərqi Zəngəzurun təbiətinə düşmənin vurduğu yaraları sağaldacağıq!

## Bu əminliyi indiyədək ölkədə ətraf mühitlə bağlı gerçəkləşən layihələr yaradır

Erməni faşistləri 30 il işğal altında saxladıqları torpaqlarımızda eyni zamanda amansızcasına ekoloji terror törətmişlər. Vətən müharibəsi qələbəmizlə başa çatdıqdan sonra onların bu vəhşiliyi bütün dünyaya bəyan oldu. Xaricdən gələn nümayəndə heyətləri və jurnalistlər, ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun əməkdaşları erməni vandallığının izlərini öz gözləri ilə gördülər. Prezident İlham Əliyev işğalçıların bu vəhşiliklərini ekosid - ətraf mühitə qarşı genosid adlandırıb.





Dövlət başçısı bu məsələni öz çıxışlarında, xarici jurnalistlərə müsahibələrində dönə-dönə vurğulayıb. Bu il fevralın 2-də Bakıda keçirilən Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda da bu mövzuya ətraflı toxunulub.

Prezident bir daha qeyd edib ki, o torpaqlarda böyük ekoloji fəsadlar baş verib. Ermənilər təbiətimizə şüurlu şəkildə qəsd ediblər. Tərtər çayının suyunu kəsməklə yanaşı, digər transsərhəd çayları çirkləndiriblər. Zəngəzurda yerləşən mis-molibden kombinatlarının axıntılarını birbaşa Oxçuçaya, Bəsitçaya, Araz çayına yönəldərək əsl ekoloji fəlakət törədiblər. Təəssüf ki, bəzi aparıcı Avropa şirkətləri də onlarla həmrəy olaraq bu cinayətlərdə iştirak ediblər. Prezident sözügedən forumda bu barədə belə deyib: "Biz indi hüquqi prosedurlara başlamışıq. Qanunsuz istismar edilən bizim qızıl yataqlarımız təkcə sərvətimizin talanması deyil, eyni zamanda o hasilatın nəticəsində yaranan ziyanlı, zəhərli maddələrin düzgün utilizasiya olunmaması, hasilat üçün istifadə edilən reagentlər, o zəhərlər hamısı bizim təbiətimizə böyük ziyan vurdu. Oxçuçayın o görüntüləri var, sapsarıdır. Kim bunu edib? Ermənilər!"

Eyni zamanda meşə fondumuz məhv edilib. 1988-ci ilin statistikasına görə, azad edilmiş ərazilərdə meşə fondu 230 min hektar olub. Müharibədən sonra "Azersky" peykimizin əldə etdiyi görüntülər isə tamamilə başqa mənzərədən xəbər verir. Ermənilər tərəfindən 55 min hektar meşə fondunun qırıldığı, kəsildiyi, satıldığı məlum olur. Prezident Ilham Əliyev bunların və erməni faşistlərinin təbiətə qarşı digər vəhşiliklərinin cinayət olduğunu bir daha vurğulayaraq deyib: "Bizim təbii sərvətlərimizi qanunsuz istismar edən xarici şirkətlərə qarşı hüquqi prosedurlara start vermişik. Onların bir çoxu əslən ermənilərdir. Onlara qarşı artıq vəkillər də tutulub və indi görəcəklər onları nələr gözləyir. Biz onların yaxasını buraxmayacağıq".

Əlbəttə, bununla paralel şəkildə genişmiqyaslı ekoloji bərpa tədbirləri də görülür. Düşmənin Qarabağın və Şərqi Zəngəzurun təbiətinə vurduğu yaraları tezliklə sağaldacağıq!

Bu əminliyi yaradan həm də indiyədək ölkəmizdə ekologiya sahəsində həyata keçirilmiş tədbirlərdir. Təcrübə məhz belə deməyə əsas verir. Çünki Azərbaycanda, ümumiyyətlə, azad edilmiş torpaqları nəzərə almasaq, ən çətin vəziyyət Bakıda, Sumqayıtda və Abşeron yarımadasında yaranmışdı. Bu da neftin və qazın uzunmüddətli hasilatı, həmçinin Sumqayıtdakı kimya sənaye müəssisələrinin fəaliyyəti ilə bağlı idi. Görülən böyük işləri Prezident İlham Əliyev belə xatırladır: "Mən bu işin təşkilatçısı kimi hər bir layihəni yaxşı xatırlayıram. Bakının ekoloji vəziyyəti çox ağır idi, havanın çirklənməsi çox yüksək idi. 20 il bundan əvvəl və bu gün böyük fərq var. Görün Bakıda biz hansı böyük işlərə, onların icrasına nail olduq. Birinci, bu Bibiheybət buxtası. Bu, bir ekoloji fəlakət zonası idi. Şəhərin mərkəzində bütün neft gölməçələri artıq buxarlanırdı. Bu zəhərli hava ekoloji vəziyyətimizə böyük ziyan vururdu və o mənzərə də çox acınacaqlı idi. Hətta Ceyms Bond filmlərinin biri də, bax burada çəkilmişdi. O filmdə həmin o Bibiheybət buxtası göstərilir. Həqiqətən, ekoloji fəlakət zonası idi. Amma mən bu məsələni qaldıranda bəziləri deyirdilər ki, bu mümkün deyil, bu, əbədi belə qalmalıdır, bunu saflaşdırmaq mümkün deyil. Amma göründü ki, mümkündür. Bu gün baxın, bu, şəhərin ən gözəl yerlərindən biridir, istirahət zonasıdır, böyük parkdır. Bulvar salmışıq, Su İdman Sarayı, muzeylər, ictimai obyektlər şəhər sakinləri üçün çox gözəl rekreasiya zonasına çevrilib".



İndi "Qara şəhər" də artıq Ağ şəhərə çevrilib. Gələcək nəsillər bəlkə də heç bilməyəcək ki, Bakıda "Qara şəhər" adlı bir yer olub. Tüstülü, mazutlu "Qara şəhər" "Ağ şəhər"ə çevrilməyə başlayanda da bir çoxları şübhə ilə yanaşırdı ki, bu mümkün deyil. Amma bu gün dünya miqyasında şəhərsalma nöqteyi-nəzərindən bəlkə də ən uğurlu layihələrdən biri Ağ şəhərdir. O çirklənmiş yerlərdən əsər-əlamət qalmayıb. Keçən ilin son günlərində burada bərpa edilmiş "Nizami" parkı da yenidən açılıb.

Daha bir təhlükəli yer Balaxanı zibilxanası idi. Zibilxana daim yanır, tüstü buraxırdı və sanki şəhəri böyük bir bulud bürüyürdü. Yaxından keçmək mümkün deyildi, sanki boğulacaqdın. Ora da təmizləndi, yerində böyük zibilyandırma zavodu tikildi, poliqon inşa edildi. Daha sonra orada Olimpiya Stadionu istifadəyə verildi, böyük bir park salındı. Yaxınlıqdakı Böyükşor gölü təmizləndi. Bir sözlə, bu tədbirlər davamlıdır və Bakı şəhərini faktiki olaraq təbii fəlakətdən qorudu.

Sumqayıt isə sovet dönəmində ekoloji cəhətdən ən çirklənmiş şəhər hesab olunurdu. O vaxt Sumqayıtdan şimal istiqamətinə gedən maşınların sərnişinləri havadan zəhərli iy gəldiyi üçün şüşələri bağlayırdılar. İndi Sumqayıt həm öz sənaye potensialını qoruyub, həm də ekoloji cəhətdən təmiz şəhərdir.

Ekologiya daim diqqətdə olan məsələdir və bu baxımdan Qarabağın və Şərqi Zəngəzurun düşmən tərəfindən zərbə almış ətraf mühitinin bərpası da böyük önəm kəsb edir. Prezidentimiz sözügedən tədbirdə bildirib ki, Azərbaycanda bu sahədə də gənclər, o cümlədən könüllülər çox fəaldır: "İndi vaxtaşırı ağacəkmə aksiyaları, çimərlikləri o tullantılardan təmizləmə aksiyaları televiziyada da göstərilir. Mən bunları alqışlayıram və əminəm ki, azad edilmiş torpaqlarda da gənclər ekoloji tarazlığı bərpa etmək üçün fəal olacaqlar".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi anılıb





Fevralın 7-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü münasibətilə Müdafiə Nazirliyinin bir qrup yüksəkrütbəli zabit heyəti və hərbi qulluqçular şəhidimizin məzarını ziyarət edib, üzərinə gül dəstələri düzüblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sonra Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində qəhrəmanın anım tədbiri keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Milli Qəhrəman Mübariz İbrahimovun şərəfli ömür və döyüş yolundan bəhs edən videoçarx təqdim olunub.

Anım tədbirində çıxış edənlər Milli Qəhrəmanın göstərdiyi şücaət və qəhrəmanlıqdan danışıb, Mübariz İbrahimovun vətənpərvərlik və mübarizlik hissinin yüksək olduğunu qeyd ediblər.

Bildirilib ki, şəhid hərbi qulluqçumuz qısa ömür yaşasa da, Vətən yolunda canından keçərək gənclərə örnək olacaq bir addım atıb.

Qeyd olunub ki, Mübariz İbrahimovun göstərdiyi rəşadət Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən tədbir iştirakçılarına vətənpərvərlik mövzusunda musiqilər təqdim olunub.

# Artilleriya bölmələri ilə yeni tədris dövrünün məşğələləri keçirilir

Cari ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusunun raket və artilleriya bölmələri ilə yeni tədris dövrünün məşğələləri keçirilir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edən raket və artilleriya bölmələri təyin olunmuş marşrutlarla hərəkət edərək atəş mövqelərini tutublar.

Keçirilən məşğələlərdə əsas diqqət Vətən müharibəsində əldə edilmiş döyüş təcrübəsi nəzərə alınmaqla komandir heyətinin çevik qərar qəbuletmə bacarıqlarının təkmilləşdirilməsinə, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqədə atəşi idarəetmə suallarının məşq etdirilməsi və hərbi qulluqçuların praktiki vərdişlərinin inkişaf etdirilməsinə yönəldilib.

# Hərbi qulluqçuların psixoloji sahədə maarifləndirilməsi diqqət mərkəzindədir



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin psixoloqlarının, Respublika Hərbi Prokurorluğunun və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələrinin iştirakı ilə hərbi hissələrdə tədbirlər keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana əsasən, bölmələrdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin öyrənilməsinə, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsində komandir-rəis heyətinə kömək göstərilməsinə dair tövsiyə xarakterli metodiki məşğələ keçirilib.

Tədbirlər çərçivəsində hərbi xidmətə yeni çağırılan gənc əsgərlərlə onların xidmət şəraitinə uyğunlaşması və psixoloji sağlamlığının qorunması məqsədilə kollektiv, qrup və fərdi qaydada psixoloji yardım və dəstək fəaliyyəti həyata keçirilib, söhbətlər aparılıb.

Sonda gənc əsgərləri maraqlandıran suallar cavablandırılıb və onlara hərbi xidmətlə bağlı lazımi tövsiyələr verilib.

# "TEKNOFEST Azərbaycan" çərçivəsində yarışlar 10 müsabiqə üzrə keçiriləcək

Azərbaycanda Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşkilatçılığı ilə bu il mayın 26-29-da ilk dəfə olaraq baş tutacaq "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalına dair fevralın 7-də mətbuat konfransı keçirilib.







AZƏRTAC xəbər verir ki, mətbuat konfransında rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, "TEKNOFEST" Müşahidə Şurasının sədri və "Türkiye Teknoloji Takımı Vakfı"nın (T3 Vakfı) rəhbəri Selçuk Bayraktar festivalla bağlı çıxış ediblər.

Bildirilib ki, "TEKNOFEST" Türkiyədə Sənaye və Texnologiya Nazirliyinin və T3 Vakfının birgə təşkilatçılığı, qardaş ölkənin 60-dan çox dövlət qurumu, ali məktəbi və özəl şirkətinin tərəfdaşlığı ilə 2018-ci ildən etibarən hər il keçirilir.

Festivalın keçirilməsində əsas məqsəd aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat və ətraf mühitin qorunması kimi sahələrin gənclər arasında təbliği, bu sahələrdə sahibkarlığın təşviq edilməsi, festival çərçivəsində təşkil olunan yarışlar vasitəsilə yeniyetmə və gənclərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunmasıdır.

Mətbuat konfransında qeyd edilib ki, Azərbaycanın evsahibliyi edəcəyi irimiqyaslı "TEKNOFEST Azərbaycan" böyükdən-kiçiyə hər kəsin maraq dairəsinə uyğun tədbirlərlə zəngin olacaq. Mayın 26-29-da "Bakı Kristal Zalı" və Dənizkənarı Bulvar ərazisində keçiriləcək festival türk və azərbaycanlı pilotların təqdimatında aviaşou, yarış və müsabiqələrin möhtəşəm final mərhələləri, sərgilər, əyləncəli attraksionlar, Azərbaycan və Türkiyə aviatexnikasının nümayişi, "TAKE OFF" Azərbaycan startap sammiti, konsert proqramı və digər sürprizlərlə yadda qalacaq.

"TEKNOFEST Azərbaycan" çərçivəsində yarışlar "Robotexnika", "Yaşıl texnologiyalar (GreenTech)", "Aqrar texnologiyalar (AgriTech)", "Pilotsuz uçuş aparatları (PUA)", "Həvəskar peyk modelləşdirilməsi", "Sosialyönümlü texnologiyalar", "Smart Qarabağ" Hakatonu, "Sailplaner", "Baku Skills", "Rocket League" oyunu üzrə Avropa kuboku daxil olmaqla 10 müsabiqə üzrə keçiriləcək.

Yarışlar üzrə əsas tərəfdaş qismində Energetika Nazirliyi, Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "AzInTelecom" MMC, "Azərkosmos" ASC, Aviasiya Akademiyası, ADA Universiteti, Azərbaycan Kiber İdman Federasiyası, Azərbaycan Beynəlxalq Bankı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Rəqəmsal İnkişaf və İnnovasiyalar Agentliyi çıxış edirlər.

"Robotexnika" müsabiqəsi insana gündəlik həyatda faydalı olan və ya istehsalatda işinin müəyyən bir hissəsini yerinə yetirən, hətta əyləncəyə çevrilə bilən robotların dizaynını hədəfləyir.

"Yaşıl Texnologiyalar (GreenTech)" müsabiqəsi bərpaolunan enerji mənbələrindən istifadə, yeni texnologiyaların təşviqi, cari texnologiyaların təkmilləşdirilməsi, təbii sərvətlərdən ehtiyatlı istifadə və gələcək nəsillərə ötürülməsini təmin edən, həmçinin sıfır tullantı hədəfinin həyata keçirilməsini asanlaşdıracaq texnologiyalar üzrə mövzuları əhatə edir.

"Aqrar texnologiyalar (AgriTech)" müsabiqəsi "Əşyaların interneti" və süni intellekt kimi texnoloji həllərin tətbiqi ilə meyvəçilik, tərəvəzçilik və heyvandarlıq sahələrində məhsuldarlığın artırılmasına, eləcə də su resurslarından səmərəli istifadəyə yönəlmiş layihələr arasında keçirilir.

"Pilotsuz uçuş aparatları (PUA)" müsabiqəsinin şərtlərinə əsasən, komandalar tərəfindən uçuş aparatı dizayn edilir. Müsabiqədə komandalara özlərinin dizayn etdikləri PUA-ları nümayiş etdirmək şansı verilir.

"Həvəskar peyk modelləşdirilməsi" müsabiqəsi (CANSAT) kosmik sahəyə marağın artırılması və bu sahədə fundamental bilik və bacarıqları formalaşdıraraq yerli kadrların yetişdirilməsi məqsədilə təşkil edilir. Bu müsabiqədə qarşıya qoyulan tapşırıqlar elektronika, mexanika, proqramlaşdırma kimi mühəndislik istiqamətləri üzrə nəzəri və təcrübi biliklərin tətbiqinə və inkişafına şərait yaradır.

"Sosialyönümlü texnologiyalar" müsabiqəsi fərdlərin öz sosial məsuliyyət məlumatlılığı ilə texnoloji bilik və təcrübələrini inteqrasiya edərək cəmiyyət üçün faydalı layihələr ərsəyə gətirmələrinə dəstək olmaq məqsədi daşıyır. İnsan həyatına təsir edən bütün sahələrdə innovasiya və texnoloji inkişafla tətbiq olunacaq layihələrin hədəfində faydalılıq, cəmiyyətə töhfə dayanır.

"Smart Qarabağ" Hakatonu ilə Qarabağın dirçəliş proqramında yaxından iştirak etmək istəyən və "Ağıllı şəhər" konsepsiyasına dair innovativ layihələri olan tələbələr, startaplar və sahibkarlar üçün unikal təqdimat imkanı yaradılır. Hakaton təhsil, kənd təsərrüfatı, nəqliyyat, ev təsərrüfatı, enerji sərfiyyatı, su sərfiyyatı, ətraf mühit və təhlükəsizlik sahələrini əhatə edir.

"Sailplaner" müsabiqəsi gənclərin təyyarə modeli hazırlamasına və təyyarə konstruktoru qabiliyyətinin inkişafına yönəlib.

"Baku Skills" müsabiqəsi iştirakçıların 3D çap texnologiyasından istifadə bacarıqlarının təkmilləşdirilməsini hədəfləyir. Müsabiqədə iştirakçıların 3D printerlərdən istifadə etməklə yaratdığı layihələrdə onların təsəvvür qabiliyyəti və dizaynlarını realizə bacarıqları yoxlanılır.

"Rocket League" oyunu üzrə Avropa kuboku çempionatı populyar videooyunlar üzrə gənclər arasında keçirilən çempionatdır.

Müsabiqələrə qoşulmaq üçün "teknofest.az" saytı üzərindən qeydiyyatdan keçmək lazımdır.

Hər kateqoriya üzrə 1-ci, 2-ci və 3-cü yer sahibləri üçün diplom və pul mükafatları nəzərdə tutulub. Müsabiqədə iştirak edən hər kəsə iştirak haqqında sertifikat təqdim olunacaq. Müvafiq yarışlarda yuxarı sinif şagirdləri, tələbələr, startaplar və sahibkarlar iştirak edə bilərlər. Bir sözlə, "TEKNOFEST Azərbaycan" məktəblilər, tələbələr, startapçılar və sahibkarlar ümumilikdə gənclər üçün yeni fürsətlər açır.

Tədbirin davamında Türkiyədən gəlmiş bir qrup tələbə səhnəyə dəvət edilib və əyalət tələbələrinin möhtəşəm uğuru barədə məlumat verilib. Bildirilib ki, Türkiyənin "Grizu-263A" adlı ilk mini-peyki İlon Maskın "SpaceX" raketi ilə kosmosa göndərilib. Peyk Türkiyənin Zonquldak şəhərindəki Bülent Ecevit Universitetinin Mühəndislik fakültəsi tələbələri tərəfindən hazırlanıb. 1992-ci ildə Zonquldak mədənində baş vermiş partlayış nəticəsində həlak olmuş mədənçilərin adını daşıyan peyk kosmosa ABŞ-ın Floridadakı "Cape Canaveral" kosmodromundan qalxıb. Peyk təxminən 525 kilometr yüksəklikdə 4 il 8 ay müddətində xidmət göstərəcək.

Sonra "Robotexnika" müsabiqəsinə qatılmış, 6 şəhid övladından ibarət "Zəfər" komandasının təqdimatı dinlənilib. Şəhidlərimizin yadigarları "TEKNOFEST"in ölkəmizdə keçiriləcəyi xəbərini çox sevinclə qarşıladıqlarını və iştirak etməkdən məmnun olduqlarını dilə gətiriblər.

Daha sonra media nümayəndələrinin sualları cavablandırılıb.

Xatırladaq ki, İstanbulda keçirilmiş "TEKNOFEST 2021"də Azərbaycan pavilyonunda 11 startapımız nümayiş etdirilib. Startaplar kosmik sənaye, hərb, təhsil, tibb, kənd təsərrüfatı, nəqliyyat, videooyunlar kimi müxtəlif sahə və istiqamətləri ümumilikdə yeni texnologiyaları əhatə edib.

# Tərtər istiqamətində mövqelərimiz atəşə tutulub

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən Tərtər rayonunun Qapanlı kəndi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri fevralın 6-sı saat 00:23-dən 02:12-dək heç bir səbəb olmadan atıcı silahlardan fasilələrlə atəşə tutulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən dərhal cavab tədbirləri görülüb.

Hadisə nəticəsində mülki əhali və bölmələrimizin şəxsi heyəti arasında xəsarət alan yoxdur.

Mövqelərimiz atəşə tutulan zaman Qapanlı yaşayış məntəqəsi ərazisindəki mülki tikiliyə güllə dəyib.

Təxribat törədən qanunsuz erməni silahlı dəstəsinin üzvlərinin spirtli içkinin təsiri altında atəş açmaları tərəfimizdən müşahidə edilib.

Hadisə ilə bağlı dərhal Rusiya sülhməramlı kontingentinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə məlumat verilib.

# Ermənistanda orduya inam qalmayıb

*Əvvəli 1-ci səh.*

Müasir Ermənistan ordusunu xarakterizə edən cəhətlər isə daha dəhşətlidir. Mənəvi-psixoloji durumu gündən-günə daha da ağırlaşan məğlub orduda xəstəlik və səfalətin durmadan genişləndiyi bir vaxtda hərbi qulluqçuları müalicə etmək üçün nə maddi vəsait, nə də yer çatışır. Zabit və gizirlər əvvəlki kimi şəxsi heyətin sağlamlığına biganə yanaşırlar. Hərbi qulluqçulara aşağı kalorili və zərərli qida məhsulları verilməsi davam edir.

Bütün bunların fonunda erməni ordusunda fərarilik özünü daha qabarıq büruzə verməyə başlayıb. Bu günlərdə daha iki hərbçi qeyri-müəyyən şəraitdə öz mövqelərindən yoxa çıxıb. Qeyd edilir ki, onlardan biri Vayotsdzor Qladzor icmasının sakini, müqaviləli hərbçi, 33 yaşlı Vahe Manukyandır. O, 2021-ci ilin 12 noyabrından axtarışdadır. Hərbçi həyat yoldaşı ilə telefon danışığı zamanı yoxa çıxıb. Onun itkin düşməsi faktı üzrə 10 gün sonra mövqeni icazəsiz tərk etməsi maddəsi ilə cinayət işi açılıb. Yerli medianın yazdığına görə, hərbi polisin belə məlumatları haradan əldə etdiyi, hərbi polis əməkdaşlarının ailəyə hansı əsasla Vahenin fərari kimi qaçması barədə məlumat verməsi məlum deyil, çünki bununla bağlı şahid və müvafiq ifadə yoxdur. Üstəlik, Vahenin yoxaçıxma şəraiti xüsusən Müdafiə Nazirliyinin onun xidmət müddətinin uzadılması ilə bağlı açıqlaması, habelə digər iddialar fonunda şübhəlidir.

Bildirilir ki, eyni mövqedə daha bir əsgər, 19 yaşlı Narek Mkrtçyan da itkin düşüb. Onun barəsində də eyni əsasda cinayət işi başlanıb. Uzun müddət davam edən istintaq zamanı Narekin cinayət işində heç bir şübhəli və digər təqsirləndirilən şəxslər iştirak etməyib, ittiham yalnız itkin düşən hərbçiyə qarşı irəli sürülüb.

Belə görünür ki, postmüharibə dönəmində orduda vəziyyət daha da pisləşib. Ordudakı yüksəkvəzifəli zabitlərin özbaşınalıqları, rüşvətxorluğu, şəxsi heyəti kiçik komandirlərin (çavuş heyəti) idarə etməsi, onların nizamnamədənkənar və nalayiq davranışları əsas etibarilə müddətli xidmət edən əsgərlər arasında fərariliklə yanaşı, intihar hallarının sayının da sürətlə artmasına səbəb olur. Aparılan araşdırmalar hələ də Ermənistan ordusunun kütləvi şəkildə homoseksualizm bəlasından əziyyət çəkdiyini göstərir. Zabit və gizirlər tərəfindən hərbi qulluqçuların zorlanması və onlara təcavüz edilməsi, döyülməsi, zabit və gizirlərin hərbi qulluqçuların valideynləri ilə cinsi əlaqəyə girməsi və zorlama faktının şəxsi heyət tərəfindən aşkarlanması halları da ötən illərlə müqayisədə əhəmiyyətli dərəcədə çoxalıb.

Komandir heyəti tərəfindən əsgər valideynlərinin pul gətirməyə vadar edilməsi, hərbi hissələrdən hərbi qulluqçuların qeyri-qanuni yolla müəyyən olunmuş pul müqabilində ay ərzində hərbi hissədən kənara buraxma halları, hərbi qulluqçular tərəfindən mülki əhaliyə qarşı bir çox cinayət, o cümlədən mülki şəxslərin əmlakının oğurlanması, əhaliyə qarşı zor tətbiq edilməsi, zorlama, təcavüz və digər belə hadisələrin törədilməsi ilə bağlı faktların sayı artmaqdadır.

Bundan başqa, orduda şəxsi heyət arasında narkotik maddə qəbuletmə halları da sürətlə yayılmaqdadır və belə maddələrin hərbi hissələrə gətirilməsi, şəxsi heyətə satılması planlı şəkildə zabit-gizirlərin himayəsi altında çavuş heyəti tərəfindən həyata keçirilir. Məvaciblərin az olması və vaxtında verilməməsi səbəbindən ordunun əmlakı yüksəkrütbəli hərbçilər tərəfindən talan edilərək satılır.

"4rd.am" saytı xidmət zamanı intihar edən, qaçan hərbçilərin ailələrinə təzyiq olunduğunu bildirir. Yazır ki, ölənlərə aid qeydiyyat kitabçaları, şəxsi gündəliklərin yoxa çıxması da adi hala çevrilib. Hesab edilir ki, hakimiyyəti bu addımı atmağa Ermənistan ordusu haqqında bir çox həqiqətlərin üzə çıxa bilmək xofu vadar edir. Rəhbərlik orduya korrupsiya mənbəyi kimi baxdığından hərbi qulluqçuların nizam-intizamı, mənəvi-psixoloji, maddi və fiziki vəziyyəti ötən illərə nisbətən daha da pisləşir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***




# Humanitar tədbirlərlə zəngin olan ötən il

Əvvəli 1-ci səh.

Heydər Əliyev Fondunun silsilə tədbirləri, xarici ölkələrdə keçirilən Azərbaycan mədəniyyəti günləri, Üzeyir bəy Hacıbəyli, Rostropoviç, Qəbələ Beynəlxalq Musiqi festivalları, "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı, Bakı Caz Festivalı, görkəmli mədəniyyət xadimlərinin yubileyləri ölkəmizin getdikcə artan nüfuzu və potensialının mədəniyyət sahəsindəki təzahürüdür. Bütün bunlar hazırda Azərbaycanı dünyanın əsas musiqi mərkəzlərindən birinə çevirmişdir.

Son illər Naxçıvan, Qəbələ, Şəki, İsmayıllı, Lənkəran və digər şəhər və rayonlarda keçirilən tədbirlər həm bölgələrin mədəni irsinin, həm də turizm potensialının yerli və beynəlxalq ictimaiyyətə tanıdılması baxımından əhəmiyyətlidir.

## Nizami Gəncəvi bəşəriyyət üçün sonu görünməyən zəngin bir sərvətdir

Ötən il Prezident İlham Əliyevin humanitar sahədə imzaladığı ən mühüm sərəncamlardan biri, 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilməsi ilə bağlı oldu. Nizami Gəncəvi bəşəriyyət üçün sonu görünməyən zəngin bir sərvətdir. İctimai fikir tarixində onun kimi dühaya sahib olmaq isə Azərbaycan xalqının böyük xoşbəxtliyidir. Hələ XII əsrdə Azərbaycan torpağında - dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim şəhərimiz Gəncədə belə bir dühanın, mütəfəkkirin, söz sərrafının yaşayıb yaratması, əsərləri ilə bütün dünyada şöhrət tapması xalqımızın yüksək mənəvi potensialından, malik olduğumuz ali dəyərlərdən xəbər verir. Yaxın və Orta Şərq ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən, ecazkar söz sənəti inciləri ilə qəlblərdə əbədiləşən Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində qərar tutur.

Mütəfəkkir şairin yaradıcılığı özündən sonrakı dövrdə böyük bir ədəbi məktəb formalaşdırıb. Nizami Gəncəvi sözünün işığında dünyanın müxtəlif ölkələrində yüzlərlə şair, filosof yetişib. Onun əsərləri dünya fəlsəfi fikrinə yeni bir istiqamət, yön verib. Dahi şairimizin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafında da önəmli rol oynayıb.

2021-ci ildə dahi şair və mütəfəkkirin anadan olmasının 880-ci ildönümü tamamlandı. Bu münasibətlə ötən il bütünlüklə Nizami irsinə həsr edildi. Azərbaycanda və dünyada böyük şairin həyat və yaradıcılığına həsr olunmuş silsilə tədbirlər keçirildi. Əsərləri nəşr olundu. Nizami dühasının təbliği istiqamətində mühüm işlər görüldü. Beləliklə, həm cəmiyyətimiz, həm də dünya Azərbaycan xalqının bəşər mədəniyyətinə bəxş etdiyi ölməz dühanı daha yaxından tanımaq imkanı qazanmış oldu. "Yaşayan Nizami Gəncəvi", "Nizami Gəncəvi və Əlişir Nəvai: ənənə və novatorluq", "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat yolu və sənət idealları", "Nizami Gəncəvinin hikmət xəzinəsi", "Nizami Gəncəvinin əsərlərində türkizmlər", "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin milli və bəşəri idealları və müasir dövr", "Nizami Gəncəvi irsi əlyazmalarda, təsviri incəsənətdə, musiqidə", "Nizami və Nəvai irsinin mif və folklor qaynaqları" və digər mövzularda 30-dək beynəlxalq elmi konfrans və sessiyalar, 25 "dəyirmi masa" və seminarlar keçirildi, kitab təqdimatları oldu. "Nizami Gəncəvi: mütəfəkkirin irsi dünya mədəniyyəti və milli özünüdərk kontekstində" (rus dilində), "Nizami və tarix", "Ərtoğrul Cavid və Nizami Gəncəvi irsi", "Nizami Gəncəvi əlyazmalarının Bakı nüsxələri" və başqa nəşrlər oxucular tərəfindən maraqla qarşılandı. Paris Milli Kitabxanasından ötən ilin aprelində Nizami Gəncəvi "Xəmsə"sinin XV əsrin ortalarında və 1561-ci ildə köçürülmüş əlyazmasının və may ayında ABŞ-ın Vaşinqton şəhərindəki Konqres Kitabxanasından Nizami Gəncəvi "Xəmsə"sinin XVII əsrin əvvəllərində köçürülmüş əlyazmasının surətləri əldə edilib Azərbaycana gətirildi.

Böyük şairin əsərləri və onun yaradıcılıq irsi haqqında yeni nəşrlər həm Azərbaycan, həm də müxtəlif dillərdə (rus, türk, ingilis, alman, ispan, ərəb, fars, Çin, polyak, bolqar, gürcü, Ukrayna dillərində) çap edilərək dünyanın tərəfdaş akademiyalarına və tanınmış xarici ölkə alimlərinə göndərildi. Bir il ərzində 50-dək əsər işıq üzü gördü. Bundan başqa, çoxsaylı sərgilər təşkil edildi, tamaşalar yazılıb səhnəyə çıxarıldı. "Xəmsə" əsasında "Sonsuz Tanrı məhəbbəti", ilk dəfə olaraq Azərbaycan aşıqlarının ifasında "Leyli və Məcnun" poemasının motivləri əsasında eyniadlı dastan-tamaşa hazırlandı. Azərbaycan Milli Dram Teatrında ötən ilin dekabrında "İSGƏNDƏRə yeni NAMƏ" tamaşasının təqdimatı yüksək səviyyədə keçirildi. Yaradıcılığı həmişə dünya şərqşünaslıq elminin maraq dairəsində olan Nizami Gəncəvi əsərlərinə hər bir kəsdə daim böyük sevgi, heyranlıq, bitib-tükənməyən vurğunluq öz təcəssümünü tapır. Nizami müdrikliyi, böyük şairin bəşəriyyətə təlqin etdiyi mənəvi dəyərlər ən çətin zamanlarda da insanlar üçün bir ümid işığına, gələcəyə, inkişafa yol göstərən mənəvi bələdçiyə çevrilir. Çünki xalq olaraq daşıdığımız ali dəyərlər, dünyaya humanist nəzərlərlə baxışımız, bəşəriyyətin xoşbəxt gələcəyi ilə bağlı arzularımız və bu gələcəyə töhfə vermək əzmimiz Nizami Gəncəvi kimi dahi sənətkarlarımızın şəxsiyyətində, həyat və yaradıcılığında öz əksini tapır.

## Şəxsiyyətlərimizə ehtiram

2021-ci ildə dövlət rəhbərimizin görkəmli şəxsiyyətlərimizin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı da mühüm sərəncamları oldu. Bu, Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndəsi, böyük el sənətkarı Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi ilə bağlı idi. Prezident İlham Əliyev bu münasibətlə ötən il fevralın 18-də sərəncam imzaladı. Sənəddə Aşıq Ələsgərin çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırdığı xüsusi vurğulanır. Xalq ruhu ilə həmahəng əsərlərinin Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etdiyi diqqətə çatdırılır. Bu, Vətənə, xalqımızın milli-mənəvi dəyərlərinə məhəbbəti tərənnüm edən, ana dilimizin saflığını, məna potensialını və hüdudsuz ifadə imkanlarını əsərlərində təcəssüm etdirən Aşıq Ələsgərin yaradıcılıq irsinə ən yüksək qiymətdir.

Azərbaycan Prezidentinin görkəmli elm xadimi, dünya şöhrətli həmvətənlimiz Lütfi Zadənin 100 illiyinin keçirilməsi haqqında yanvarın 25-də imzaladığı sərəncam da tarixi şəxsiyyətlərimizə ehtiramın daha bir nümunəsidir. Lütfi Zadə fundamental nəzəriyyələri ilə elm tarixində ciddi dəyişikliklərə yol açıb. Onun ardıcıl tədqiqatlarının nəticəsi kimi irəli sürdüyü qeyri-səlis məntiq nəzəriyyəsi müxtəlif elm sahələrinin müasir mərhələdə inkişafında dərin iz qoyub və yeni yanaşma üsulları meydana gətirib. Lütfi Zadə dünya miqyasında əsərlərinə ən çox istinad olunan alimlərdəndir. Azərbaycanlı olduğunu daim fəxrlə bildirən və ürəyi hər zaman doğma Vətəni ilə bir döyünən Lütfi Zadə elm və texnologiyaların inkişafında, eləcə də mədəniyyətlərarası dialoqun qurulmasında misilsiz xidmətlərinə görə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Dostluq" ordeninə layiq görülüb. Öz vəsiyyətinə uyğun olaraq vəfatından sonra Azərbaycan torpağında, Fəxri xiyabanda dəfn edilib. Dövlət rəhbərimizin müvafiq sərəncamı ilə ölkəmizdə Lütfi Zadənin 100 illiyinə həsr olunmuş tədbirlər bu görkəmli alimin elmi irsinin təbliği, onun xüsusilə gənc nəslə tanıdılması, cəmiyyətdə elmin populyarlaşdırılması baxımından çox faydalı oldu.

Prezident İlham Əliyev ötən il görkəmli bəstəkarımız Tofiq Quliyevin abidəsinin ucaldılması, tanınmış Azərbaycan rəssamları Kamil Əliyevin və Mikayıl Abdullayevin 100 illik yubileyinin keçirilməsi haqqında da sərəncamlar imzaladı.

2021-ci ildə Azərbaycanın bir sıra mədəniyyət və təhsil ocaqlarının da yubiley yaşları oldu. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 90, S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının 100, AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80, C.Naxçıvanski adına hərbi liseyin 50, Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100, Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının 100, İrəvan Müəllimlər Seminariyasının 140 illiyi ölkə rəhbərinin sərəncamları ilə qeyd edildi.

Görkəmli sənət adamlarının əlamətdar günlərdə təltif edilməsi ilə bağlı xoş ənənələrə uyğun olaraq ötən il də bir sıra şəxslərə Azərbaycan Respublikasının yüksək mükafatları verildi. Türk dünyasında böyük xidmətləri olan Qazaxıstanın xalq yazıçısı Oljas Süleymenova Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şərəf" ordeni təqdim edildi. Azərbaycanın Xalq artisti, tanınmış opera müğənnisi Xuraman Qasımovaya "İstiqlal" ordeni verildi. Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi, Xalq rəssamı, Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov "1-ci dərəcəli əmək" ordeni ilə təltif edildi. Xalq şairi Nəriman Həsənzadəyə "İstiqlal" ordeninin, Yusif Axundzadəyə musiqi sənətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeninin, Tofiq Bakıxanova "Şərəf" ordeninin, Eldar Quliyevə "İstiqlal" ordeninin, İsmayıl Hacıyevə "Şöhrət" ordeninin verilməsi də cəmiyyətdə rəğbətlə qarşılanan qərarlar oldu.

## Mədəniyyət işığında

Azərbaycan Prezidentinin ötən il mədəniyyət sahəsində imzaladığı tarixi sərəncamlardan biri də Füzuli Memorial Kompleksinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında oldu. Sərəncama əsasən, Füzuli Memorial Kompleksi inşa ediləcək. Kompleks Füzuli İşğal Muzeyi və Memorial Parkını, Füzuli Zəfər Muzeyini, Füzuli Zəfər Abidəsini və Füzuli Bayraq Meydanını özündə birləşdirəcək.

Azərbaycanın 2021-ci il üzrə mədəniyyət gündəminin mühüm bir hissəsi də erməni işğalından azad edilmiş Şuşa şəhəri ilə bağlı oldu. Dövlət rəhbərimizin 7 may 2021-ci il tarixli sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Dövlət rəhbərimiz ötən il ərzində yeddi dəfə Şuşaya səfər etdi. Azad şəhərimizdə aparılan bərpa-quruculuq tədbirləri ilə yaxından tanış oldu. 2021-ci ilin mayında Şuşada keçirilən "Xarıbülbül" festivalı bütün dünya azərbaycanlılarının qəlbini riqqətə gətirdi. Azərbaycan cəmiyyətindəki milli vəhdətin, birlik ruhunun, min illərdir bu torpaqlarda yaradılan zəngin mədəniyyətin rəmzi kimi bu festivalın xoş sədası aləmə yayıldı. "Xarıbülbül" festivalı ilə yanaşı, "Vaqif poeziya günləri"nin də bərpası Vaqifin artıq əvvəlki görkəminə qayıtmış abidəsi önündə uğurla keçirilməsi Şuşanın dirçəlişinin daha bir müjdəsi oldu.

Bu cür mədəniyyət tədbirləri insanları bir-birinə doğmalaşdırır. Dünyamızı saflaşdırır, insanları pis niyyətlərdən, mənfi emosiyalardan təmizləyir. Bu, Azərbaycanın nəcib missiyasıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Medianın İnkişafı Agentliyi bəyanat yayıb

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi bəyanat yayıb. Bu barədə AZƏRTAC-a MEDİA-nın Mətbuat xidmətindən bildiriblər.

Bəyanatda bildirilir ki, Azərbaycan dövləti cəmiyyət həyatında mühüm rol oynayan peşəkar medianın fəaliyyətini daim yüksək qiymətləndirib, onun inkişafına hərtərəfli dəstək göstərib.

Ölkəmizin informasiya mühitinin sağlamlaşdırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyi hazırkı dövrdə bəzi şəxslərin öz statusundan istifadə edərək media mənsublarına qarşı etik çərçivələrə sığmayan təhqir və ittihamedici ifadələrdən istifadə etməsi yolverilməzdir.

Plüralizm, söz azadlığı, hər hansı tənqidi media materialına cavab hüququ etik prinsiplərin pozulması və təhqir xarakterli ifadələr üçün əsas ola bilməz.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi vəzifəsindən və statusundan asılı olmayaraq hər kəsi öz peşəkar funksiyalarını yerinə yetirən media və jurnalistlərlə münasibətlərində daha təmkinli, məsuliyyətli olmağa və qarşılıqlı hörmət prinsiplərinə riayət etməyə çağırır.







# İqtisadi mütəxəssis hazırlığına dəyərli töhfə

Prezident İlham Əliyevin rəhbərliyi ilə 2004-cü ildən reallaşdırılan inkişaf modeli Azərbaycan iqtisadiyyatını dünyanın ən sürətli inkişaf edən iqtisadiyyatından birinə çevirmişdir.




Nəticədə ölkəmizin iqtisadiyyatı üç dəfədən də çox böyüməklə regionda iqtisadi, siyasi və hərbi üstünlüyümüzün maddi əsasını təmin etmiş, ən islahatçı ölkə statusuna yüksəlmiş, əhalinin rifah halı yaxşılaşmış, həmçinin Azərbaycan Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində mühüm iqtisadi məkana çevrilmişdir.

Qarşıdakı hədəf növbəti 10 ildə Azərbaycan iqtisadiyyatını iki dəfə daha böyütmək, dünya iqtisadi sisteminə səmərəli inteqrasiya etməklə, dövlət və cəmiyyət olaraq əldə etdiyimiz nailiyyətləri daha da möhkəmləndirməklə, yeni uğurlara nail olmaqdır. Prezident İlham Əliyevin rəhbərliyi və müəllifliyi ilə yaradılan iqtisadi islahatların idarəedilməsi modeli hal-hazırda inkişaf etməkdə olan ölkələr tərəfindən öyrənilir. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi və təşəbbüsü ilə ölkədə reallaşdırılan iqtisadi islahatlar konseptual və funksional model olaraq dəfələrlə qlobal miqyasda müsbət qarşılanmış və nümunə olaraq praktikada istifadə üçün qəbul edilir. Azərbaycanda aparılan islahatların dayanıqlılığının və davamlılığının əyani nümunəsi olaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Azərbaycanda dizayn edilən və reallaşdırılan "İqtisadi İslahatların İdarəedilməsi Modeli"ni qlobal miqyasda nümunəvi innovativ təcrübə olaraq rəsmi platformasında göstərmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, iqtisad elmləri doktoru Vüsal Qasımlının iqtisadi mütəxəssislərin hazırlığı üçün hazırlayıb və nəşr etdirdiyi "İqtisadi artım" dərsliyi məhz bu baxımdan çox dəyərlidir. Vüsal Qasımlının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi qurumuna rəhbərlik etməsi, mütəmadi olaraq ölkə iqtisadiyyatının bütün sahələrində həyata keçirilən islahatlar və iqtisadiyyatda onun nəticələrinin təhlili və bu sahələr üzrə təklif və konkret model və tövsiyələrin hazırlanmasında böyük nəzəri və praktiki təcrübəsi, eyni zamanda pedaqoji və elmi fəaliyyətlə məşğul olması "İqtisadi artım" kitabının mükəmməl nəzəri və praktiki əhəmiyyətə malik olan bir dərslik olaraq hazırlanmasına xüsusi yanaşmanı təmin etmişdir.

Bu dərslikdən ali təhsil müəssisələrində bakalavr, magistr təhsil səviyyəsində və strateji menecment fənlərinin tədrisində, həmçinin iqtisadi siyasətin formalaşmasında iştirak edən mütəxəssislər tərəfindən istifadə edilməsi tövsiyə edilir. Xüsusi qeyd etmək lazımdır ki, kitabda müəllif iqtisadi artımın nəzəri-konseptual və praktik məsələlərini əhatə etməklə, makro, mezo və mikro səviyyədə iqtisadi böyümənin mahiyyətini açır və müvafiq tövsiyələri təqdim edir. Eyni zamanda iqtisadi artımın bütün elementləri, ona təsir edən amillərin nəzəri və praktiki mənbələri ətraflı və müfəssəl tədqiq edilib, maraqlı yanaşmalar verilmişdir. Qeyd edilmişdir ki, uzunmüddətli dönəmdə iqtisadi artımın drayveri investisiya, əmək resursları və təbii ehtiyatlar deyil, məhsuldarlıqdır. Yalnız bu halda eyni həcmdə istehsal amili ilə daha çox iqtisadi artımı təmin etmək olar. Əgər iqtisadiyyat səmərəli fəaliyyət göstərirsə, sərmayəni də, ixtisaslı əməyi də cəlb edəcək. Bunun üçün ölkədə sabitlik, institutların keyfiyyəti, insan kapitalı, infrastruktur, əlverişli biznes mühiti, bazarlara çıxış, qlobal dəyər zəncirlərində iştirak, inkişafı təşviq edən... 

Dərslikdə iqtisadi artımın ölkələri inkişafa aparan komponentlərdən yalnız biri olması göstərilmiş və qeyd edilmişdir ki, bu səbəbdən inkişaf konsepsiyası çoxölçülü olaraq bütöv iqtisadiyyatın və sosial sistemlərin yenidən şəkillənməsini ehtiva etməlidir. İnstitutsional, sosial və inzibati strukturlarda dəyişikliklər gəlirlərin və məhsul istehsalının artımına səbəb olur. Mütərəqqi beynəlxalq iqtisadi və sosial sistemlərin modifikasiya edilərək milli kontekstdə uyğunlaşdırılması vacib məqamlardan biridir. Hətta qlobal ideyaların yerli şəraitdə tətbiqini ehtiva edən "qlokalizasiya" ifadəsi yaranmışdır. Bu baxımdan Vüsal Qasımlı "İqtisadi artım" kitabında da Azərbaycan inkişaf modelinin özünəməxsusluğunu qabarda bilmişdir.

Ümumi şəkildə desək, iqtisadi artım - müəyyən dövr ərzində məhsul və xidmətlərin buraxılışında yaranan real dəyişmədir. Eyni zamanda geniş yayılmış yanaşmalardan birinə görə, iqtisadi artım inflyasiya nəzərə alınaraq, adambaşına düşən məhsul və xidmətlərin buraxılışında yaranan illik faiz dəyişməsidir. İqtisadi inkişaf isə daha geniş anlayış olub, iqtisadiyyatın və sosial həyatın keyfiyyətcə yaxşılaşması, ölkə, region, icma və fərd səviyyəsində rifah halının yüksəlməsini ehtiva edir. Professor V.Qasımlı kitabda apardığı araşdırma nəticəsində belə bir qənaətə gəlir ki, iqtisadi artım əsas məqsəd deyil, davamlı inkişafı təmin etmək üçün vasitədir.

Kitabda maraqlı yanaşmalardan biri də iqtisadi artımın kompleks məsələ kimi qəbul edilməsi, müasir yanaşmalara əsaslanaraq iqtisadi artımın təmin olunması üçün palitra verilməsidir. Obrazlı desək, Günəşdəki qara nöqtələrdən savayı iqtisadi artıma heç nə təsirsiz ötüşmür. Yalnız zəki steykholderlərin konsiliumu şəraitində diaqnoz və düzgün strategiyanın seçilməsi ilə iqtisadi artımı təmin etmək mümkündür. İnstitusionalistlər, davranış iqtisadiyyatı tərəfdaları, mədəniyyəti əsas götürənlər, iqtisadi identikliyə və ya narrativlərə üstünlük verənlər, coğrafi determinizmi tərcih edənlər, klassik mövqedə dayananlar, bir sözlə, geniş bir spektr iqtisadi artımla bağlı dərin bir mükalimənin içərisindədirlər. Spektr o qədər genişdir ki, hətta Aleksandr Soljenitsinin timsalında iqtisadi artım barədə mənfi fikir söyləyənlər də olmuşdur: "İqtisadi artım nəinki, anormaldır, hətta məhvedicidir". Həqiqət payı isə hər bir yanaşmada zaman və məkan daxilində müxtəlif hədlərdədir. İqtisadi artım iqtisadi və sosial inkişafla nəticələnəndə, davamlı və inklüziv olanda, ətraf mühitə təsirləri minimuma enəndə və nəhayət, Soljenitsinin sözləri ilə desək, "məhvedici" olmayanda daha arzuolunandır. Bir sözlə, iqtisadi artım özlüyündə son məqsəd deyil, davamlı inkişaf üçün vəsilədir.

V.Qasımlı kitabda göstərir ki, həm fiskal, həm də monetar siyasət sabitlik və iqtisadi artımın balanslaşdırılmasına hədəflənir. İqtisadi artımın sürətlənməsi üçün fiskal stimullar həm də fiskal dayanıqlılıq baxımından qiymətləndirilməlidir. O cümlədən borc dayanıqlığı, pensiya və səhiyyə sisteminin dayanıqlığı, vergi sisteminin dayanıqlığı, büdcə sisteminin dayanıqlığı tələb edir ki, fiskal stimullar iqtisadi artımı sürətləndirsin. İqtisadiyyatın növbəti 10 ildə iki dəfə artırılması hədəfinə uyğun olaraq illik artım tempinin orta hesabla 7,2 faizə çatdırılması lazımdır. Yalnız davamlı iqtisadi artım fiskal dayanıqlılıq və makroiqtisadi sabitlik üçün fundamental əsasdır. Yəni fiskal stimullar iqtisadi artımı sürətləndirir, fiskal risklər məqbul hədlərdə saxlanılmaqla "fiskal fəza" genişlənir.

Müəllif "İqtisadi artım" kitabında həm də biznes modeli və iqtisadi artım arasında əlaqəni təhlil edir. Azərbaycanda iqtisadi artımın hərəkətverici qüvvəsi özəl sektor olaraq hədəfləndiyindən, biznes modelin üzərində dayanılması zəruridir. Kitabda iki yanaşma - "təkmilləşdirici menecment" (lean management) və çevik (agile) idarəetmə arasında sinerjiyə dair mülahizə verilir.

Kitabda təkcə qısa və ortamüddətli deyil, həm də uzunmüddətli inkişaf perspektivləri təhlil edilir. İsrail intellektualı Yuval Noy Harari bildirir ki, 19-cu əsrdə Britaniya sənayeləşmədən sonra dünya hegemonluğuna başlamışdır, 21-ci əsrdə də süni intellekt sahəsində önə keçən dövlət(lər) eyni ssenarini təkrarlayacaq. Hazırda süni intellekt yarışmasının önündə Çin və ABŞ gedir. Əgər süni intellektin gətirdiyi faydalar insanlar arasında bölünməsə, bəzi ölkələr yüksək texnologiyalı hablara, qalanları isə istismar olunan data-koloniyalara çevrilə bilərlər. Hararinin fikrincə, bioloji bilik, kompüterin gücü və data hətta insanı tam nəzarətə götürməyə imkan verəcək. ABŞ alimi Noam Komski, rus alimləri T.V.Çerniqovskaya və S.Y.Qlazyev bəşəriyyətin tarixində görünməmiş miqyasda texnoloji inqilabın olacağını proqnozlaşdırırlar. Bu baxımdan prof. Vüsal Qasımlı kitabda həm gələcək risk, təhdid və perspektivləri təhlil edir, həm də inkişaf üçün həll yollarını göstərir. Dünyada rəqəmsal erada beşinci nəsil geo-texnoloji rəqabət mövcuddur. Rəqabət aparmaq üçün bir çox ölkə 5G texnologiyalardan istifadə etməklə dövlət hakimiyyətinin alətlərini gücləndirir; 5G texnologiyasının hökumət, biznes və istehlakçılar tərəfindən istifadəsini stimullaşdırır; milli səviyyədə 5G texnologiyalarını avadanlıq, proqram təminatı və rəqəmsal xidmətlərdə inkişaf etdirir. Artıq Estoniya keal vaxt rejimində işləyən iqtisadiyyat strategiyasını həyata keçirir.

Müəllif kitabda qeyd edir ki, aya adam göndərmək mürəkkəb məsələdir, amma bəlli bir "resept"i var. İqtisadi artımın isə hər bir ölkə üçün fərqli "resept"i işlənməlidir. Buna görə də Harvard professoru Matt Andryus qeyd edir ki, iqtisadi artım kompleks problemdir və onun həlli "problemin hərəkət etdirdiyi və təkrarlara əsaslanan uyğunlaşma" (PDİA - problem-driven iterative adaptation) yanaşması ilə mümkündür. Yəni iqtisadi artım üçün əvvəlcə problemin dəqiq diaqnozu qoyulmalıdır, daha sonra problemin həlli üçün adaptiv strategiya işlənilməlidir.

"İqtisadi artım" kitabı beynəlxalq elmi ictimaiyyətin də diqqətini cəlb edib. Belə ki, Pakistanın İqtisadi İnkişafı İnstitutu (PIDE) və Özbəkistan Prezident Administrasiyası yanında İqtisadi Təhlil və İslahatlar Mərkəzində kitabın təqdimatları olub. Harvard Universitetinin Kennedi İdarəçilik Məktəbində "İqtisadi artımın idarə edilməsi" üzrə rəhbər kadrların hazırlanması proqramının məzunu kimi Vüsal Qasımlı "Azərbaycanda iqtisadi şaxələndirmənin tətbiqi" adlanan məqaləsində kitabın elmi nəticələrini təqdim edib. Material Harvard Universitetinin Beynəxalq İnkişaf Mərkəzinin "Dövlət quruculuğu" proqramının saytında yayımlanıb. "İqtisadi artım" kitabının xarici elmi dairələrdə müzakirəyə çıxarılması ölkəmizin intellektual təqdimatı və Azərbaycan iqtisad elminin dünya miqyasında layiqli təmsilçiliyi baxımından əhəmiyyət kəsb edir.

Eyni zamanda "İqtisadi artım" istiqamətində tədqiqat aparan doktorantlar, magistrlər, gənc tədqiqatçılar, professor-müəllimlərin və mütəxəssislərin maraqlarını nəzərə alaraq yeni düşüncə və təfəkkürlər ilə zəngin olan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurasının tövsiyəsi ilə nəşr edilən kitab Azərbaycan Diplomatik Akademiyasında, Azərbaycan Memarlıq və İnşaat Universitetində təqdimatı keçirilmiş, iqtisadiyyat və idarəetmə istiqamətində müvafiq ixtisaslar üzrə bakalavriat, magistratura səviyyəsinin təhsil Proqramında və Tədris Planında fənn kimi tədrisinin nəzərdə tutulması məqsədəuyğun hesab edilmişdir.

***Məhəbbət MƏMMƏDOV,***
***Azərbaycan Memarlıq və İnşaat Universitetinin Biznesin iqtisadiyyatı və menecment kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor***

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Ötən il texnoparklarda 2,4 milyard manatlıq məhsul istehsal olunub

## Həmin məhsulların bir hissəsi "Made in Azerbaijan" brendi ilə dünyanın 35-dən çox ölkəsinə ixrac edilib

Məlumdur ki, dayanıqlı inkişaf istehsalyönümlü sənayenin miqyasından asılıdır. Buna görə də hər bir ölkədə sənaye istehsalı ümumi istehsalda yüksək çəkiyə malik olmalıdır. Azərbaycanda bu sahədə üstün mövqe neft sənayesinə məxsusdur. Lakin enerji daşıyıcılarının qiyməti dünya üzrə sabit olmadığı üçün bu dəyişkənlik ölkənin maliyyə bazarına bəzən müsbət, bəzən də mənfi təsir göstərir.

Bu səbəbdən ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı ön plana çıxarıldı, sahədə iqtisadi islahatların aparılmasına start verildi. Bu istiqamətdə görülən işlər nəticəsində ümumi istehsalda qeyri-neft sektorunun payı ildən-ilə artmaqda davam edir.

Azərbaycanda sənayeləşmə prosesini sürətləndirmək məqsədilə 2015-2020-ci illəri əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul olunmuşdur. Bu sənədlə sənayenin inkişaf perspektivləri müəyyən edilmiş, hazırlanan tədbirlər planına əsasən, sənaye potensialının gücləndirilməsi, sahədə rəqabətqabiliyyətliliyin artırılması, kadr potensialının, elmi təminatın yaxşılaşdırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi müəyyənləşdirilmişdir.

Sənayeləşmədə ölkədə yaradılan texnoparkların əhəmiyyəti böyükdür. Çünki onlar yüksək keyfiyyətli məhsul hazırlamaq qabiliyyətinə malikdir. Buna elmin son nailiyyətlərindən və müasir texnologiyalardan istifadə etməklə nail olunur. Bakıda, eləcə də bölgələrdə texnoparkların və sənaye məhəllələrinin yaradılması istiqamətində böyük işlər görülür. Məqsəd yerli və xarici sahibkarlar üçün müxtəlif istiqamətlər üzrə yeni sənaye müəssisələrinin yaradılmasına kömək göstərməkdir.

Prezident İlham Əliyevin 21 dekabr 2011-ci il tarixli fərmanı ilə ilk dəfə Sumqayıtda Kimya Sənaye Parkı yaradıldı. Məqsəd ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsul buraxmaq, onu dünya bazarına çıxarmaq, qeyri-neft sektorunun davamlı inkişafına nail olmaq, həmçinin əhalinin məşğulluğunu təmin etmək idi. Parkın sənaye zonasında kimya sənayesi, tikinti sənayesi və digər sənaye sahələri üzrə müəssisələrin - parkın rezidentlərinin fəaliyyət göstərməsi üçün böyük imkanlar yaradılmışdır və proses davam edir. Hazırda bu müəssisələrdə istehsal edilən məhsullar ölkənin daxili tələbatını ödəməklə yanaşı, dünya bazarına da ixrac olunur. Bu da onu göstərir ki, yüksək texnika və texnologiyalardan istifadə olunduğu üçün texnoparklarda rəqabətqabiliyyətli məhsul istehsalına geniş imkan yaranıb.

Qeyd edək ki, bu, sənaye zonalarında sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradılması hesabına mümkün olmuşdur. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

Ötən il sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac edilib. Bu günlərdə Sumqayıt Kimya Sənaye Parkının daha bir rezidenti məhsul ixracına başlayıb. Sənaye zonaları ölkədə qeyri-neft sektorunun davamlı inkişafında, idxalı əvəz edən məhsulların istehsalının artırılmasında, ixracın genişlənməsində əlverişli mexanizmdir.

İndiyədək sənaye zonalarında ümumilikdə 5,8 mlrd. manatlıq məhsul istehsal edilib ki, bunun da 1,7 milyard manatlıq hissəsi ixrac olunub. 2020-ci ildə sənaye zonalarında 1,27 milyard manatlıq məhsul istehsal edilmişdisə, keçən il 2,4 milyard manat dəyərində məhsul istehsal olunub. Ötən il sənaye zonaları üzrə ixracın həcmi 2020-ci illə müqayisədə 2,7 dəfə artaraq qeyri-neft sənayesi məhsullarının ixracındakı payını 30,8 faizə çatdırmışdır.

Sənaye zonalarında istehsal olunan məhsullar daxili bazarda satılmaqla yanaşı, "Made in Azerbaijan" brendi adı ilə dünyanın 35-dən çox ölkəsinə ixrac edilib. Bu günlərdə Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Tabaterra" QSC ilk məhsul ixracını həyata keçirib. Belə ki, müəssisədə istehsal olunan "Pall-Mall" brendli siqaretlərin Gürcüstana ixracına başlanılıb.

Qeyd edək ki, "Tabaterra" QSC 2017-ci ildə Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb və müəssisədə Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında beynəlxalq standartlara cavab verən üç növdə 80 fərqli çeşiddə tütün məmulatları istehsal edilir və müəssisənin illik istehsal gücü 14 milyard ədəd siqaret təşkil edir.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Ağdamda və Cəbrayıl rayonunun Soltanlı kəndində texnoparklar yaradılır. Bu texnoparkların fəaliyyəti işğaldan azad olunan ərazilərin potensialından daha yüksək səviyyədə istifadə etmək imkanı yaradacaq. Bununla yanaşı, doğma yerlərə dönəcək soydaşlarımızın məşğulluğu da təmin ediləcək. Beləliklə, bu texnoparklar bölgənin həm iqtisadi inkişafını təmin edəcək, həm də sosial məsələlərin həllinə dəstəyini göstərəcək.

Tikilməkdə olan Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir, artıq 2 sahibkara sənaye parkının rezidenti statusu verilib. İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyində bununla bağlı keçirilən tədbirdə sahibkarlara Sənaye Parkının rezidentinin qeydiyyat şəhadətnaməsi təqdim olunub.

Müxtəlif çeşiddə sintetik xalçaların istehsalı ilə məşğul olacaq "Dadaş-N" MMC Ağdam Sənaye Parkında 2 hektar ərazidə fabrik inşa edəcək, investisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində il ərzində 1 milyon kvadratmetrdən çox xalça istehsalı, 60 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

Ağdam Sənaye Parkının digər yeni rezidenti "Veliev" MMC tərəfindən "Prefabrik dəmir-beton məmulatları istehsalı" layihəsi həyata keçiriləcək. Layihə çərçivəsində körpülərin, sənaye və yaşayış binalarının tikintisi üçün gərginləşdirilmiş dəmir beton tirlərin, kirişlərin, fermaların, döşəmə panellərinin, üfüqi su novlarının, dəmir beton dirəklərin, müxtəlif növ hasarların, kanalizasiya borularının, səki və divar daşlarının, yaşayış binalarının tikintisi üçün izolyasiyalı panellərin və s. istehsalı planlaşdırılır. Dəyəri 2,5 milyon manat təşkil edən layihə çərçivəsində il ərzində 200 min kvadratmetr dəmir beton məmulatlarının istehsalı planlaşdırılır. Müəssisədə 80 daimi iş yeri yaradılacaq, burada Türkiyə və yerli texnologiyalardan istifadə ediləcək. Müəssisədə istehsal olunan məhsullar ilkin olaraq daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

Qeyd edək ki, Ağdam Sənaye Parkı Prezidentin 28 may 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Sənaye Parkında tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, yem, gübrə istehsalı və emalının, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili nəzərdə tutulur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# "Məşğulluq marafonu"na 4126 vakansiya təqdim edilib, 1656 şəxs işlə təmin olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən ilin iyun ayında başladılan "Məşğulluq marafonu"na bu günədək 612 işəgötürən qoşularaq 4126 vakansiya təqdim edib.

Marafon Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış hərbi qulluqçuların məşğulluğuna dəstək məqsədi daşıyır.

Təqdim edilmiş vakansiyalar üzrə qeyd edilən kateqoriyalara aid 1656 şəxs işlə təmin olunub. Hazırda da vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

"Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında keçirilən "Məşğulluq marafonu"na qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında məlumatları https://dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla qeyd edə bilərlər.

# Lənkəranda bu il 60 tondan çox hallabonq tədarükü gözlənilir

Bir neçə il əvvəl cənub bölgəsində əkilib-becərilməsinə başlanan hallabonq qış aylarında yetişir. Görünüşü, dadı, ətri və məhsuldarlığına görə digər sitrus meyvələrindən fərqlənir. Bu il rayon üzrə 60 tondan çox hallabonq tədarükü gözlənilir.



AZƏRTAC xəbər verir ki, Lənkərana Cənubi Koreyadan gətirilən hallabonq tingləri ilk dəfə rayonun Sütəmurdov kəndi ərazisində 15 hektar sahədə əkilib. Nəticə ürəkaçan olduğundan sahələr ilbəil genişləndirilərək, 78 hektara çatdırılıb. Bu meyvənin indi yığım dövrüdür. Hallabonq kütləvi şəkildə deyil, hissə-hissə dərilir və bazarlara çıxarılır.

İşçi Şükufə Tahirova bildirib ki, bu meyvənin yığımı da insana zövq verir: "Bağda işləməkdən yorulmuruq. Hər işçi günə 50-60 vedrə meyvə yığır. Bağımız bu il də barlıdır. Görürsünüz, məhsul da boldur. İşləyirik, gündəlik qazancımız çıxır".

Dekabrın axırlarından yığıma start verilən təsərrüfatdan bu günədək 50 tona yaxın məhsul yığılıb. Hələ bağlardan daha 10 ton məhsul toplanması gözlənilir.

Meyvə bağının aqronomu Xalıq Talıbov isə qeyd edib ki, bu ağaclar altı il əvvəl əkilib. "Ağaclar 8-10 ilə tam məhsuldarlığa düşür. Hər ağacdan 15-20 kiloqram məhsul yığırıq. Hektarda da 500 ağac olur. Təxminən hər hektara 30-35 ton məhsul götürə biləcəyik. Hallabonq ağacları uzunömürlüdür. Amma xəstəlik və zərərvericilərdən, soyuqdan qorumaq lazımdır. Soyuqdan qorumaq üçün ağacları polietilen örtüyə almışıq", - deyə o vurğulayıb.

Ümumiyyətlə, hallabonq ağacları 8-10, meyvəsi isə 2-3 dərəcə şaxtaya dözə bilir. Meyvəsinin çəkisi 350-400, bəzən də 500-600 qram olur. Digər sitrus meyvələrindən sonra yetişməsi bazarlarda hallabonqa yüksək alıcılıq qazandırır.

# Azərbaycan diplomatının Əlcəzair portalında "Cənub qaz dəhlizi" ilə bağlı məqaləsi dərc edilib

Azərbaycanın Əlcəzairdəki müvəqqəti işlər vəkili Rəfail Bağırovun "Əl Hərir" portalında "Cənub qaz dəhlizi" və Azərbaycanın qaz strategiyası" sərlövhəli məqaləsi yayımlanıb.

AZƏRTAC xəbər verir ki, məqalədə fevralın 4-də Bakıda keçirilmiş "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin VIII toplantısı barədə məlumat yerləşdirilib. Müəllif ölkəmizin qaz strategiyası, Avropanın enerji təhlükəsizliyində mühüm rolu, eyni zamanda bərpa olunan enerji mənbələrindən istifadə edilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib.

R.Bağırov diqqətə çatdırıb ki, Prezident İlham Əliyev toplantıdakı çıxışında Azərbaycanın işğaldan azad edilmiş əraziləri üçün xüsusi proqramın olduğunu, Energetika Nazirliyinin aparıcı beynəlxalq şirkətlərlə birlikdə artıq Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası üçün konseptual proqnoz hazırladığını bildirib. O əlavə edib ki, artıq Qarabağ və Şərqi Zəngəzurda bərpa olunan mənbələrin potensialının beynəlxalq qiymətləndirilməsi aparılıb və ilkin rəqəmlər çox ümidvericidir. Dövlət başçısı onu da diqqətə çatdırıb ki, neft-qaz sahəsində Azərbaycanın strateji tərəfdaşı olan BP işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Cəbrayıl rayonunda işləməyə böyük maraq göstərir və artıq orada 200 meqavatdan çox gücə malik bərpa olunan enerji mənbəyinin tikintisi ilə bağlı danışıqlar aparılır.

Məqalədə, həmçinin Azərbaycanın neft-qaz ehtiyatları, həyata keçirilmiş transmilli enerji layihələri barədə də geniş məlumat yer alıb.

# Ərik və şaftalı bağlarının da güzəştli sığortasına başlandı

Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığota mexanizmi çərçivəsində ərik və şaftalı (nektarin) bağlarının güzəştli sığortası başlayıb.

Aqrar Sığorta Fondundan verilən məlumata görə, Nazirlər Kabinetinin 21 dekabr 2021-ci il tarixli müvafiq qərarı ilə ərik və şaftalı (nektarin) də sığortalanan məhsullar sırasına daxil edilib.

Nəticədə Azərbaycanda bu meyvələri becərən fermer və iş adamları bağlarını ən müxtəlif risklərdən sığortalaya bilərlər.

Ərik bitkisi Azərbaycanda 4 min hektar sahədə becərilir. Ərik bağları ən çox Goranboy, Samux, Şəmkir, Bərdə, Tərtər, Xaçmaz, Şəki, Ordubad və Şərurdadır. Ərik daxili bazarda satılmaqla yanaşı, xaricə də ixrac edilir - 2021-ci ildə Azərbaycandan 2,2 milyon dollarlıq ərik ixrac edilib.



Ərik bağlarının sığorta haqqı regiondan və məhsuldarlıqdan asılı olaraq dəyişir. Müxtəlif regionlarda ərik bağının baza zərfi üzrə sığorta tarifləri 2,19%-4,48% arasındadır.

Azərbaycanda iqtisadi baxımdan ən sərfəli meyvələrdən olan şaftalı isə ölkəni demək olar bütün bölgələrində 7,1 min hektarda əkilir. Şaftalı bağları ən çox Xaçmaz, Şəmkir, Goranboy, Göygöl, Quba, Qusar, Şabran və Balakəndədir.

Şaftalı (nektarin) - ölkəyə ən çox valyuta gətirən meyvələrdəndir. 2021-ci ildə şaftalı ixracı Azərbaycana 30 milyon dollardan artıq gəlir gətirib.

Şaftalı bağlarının sığorta haqqı regiondan və məhsuldarlıqdan asılı olaraq dəyişir. Müxtəlif regionlarda şaftalı bağının baza zərfi üzrə sığortası üçün tariflər 2,55%-5,34% arasındadır.

# "Gələcəkdə Şuşada da "TEKNOFEST" keçirilə bilər"

"Gələcəkdə Şuşada, o cümlədən Qarabağda da "TEKNOFEST" Festivalı keçirilə bilər".

AZƏRTAC xəbər verir ki, bu barədə fevralın 7-də rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı ilə bağlı keçirilən mətbuat konfransında deyib.

Nazir qeyd edib ki, festival çərçivəsində baş tutan müsabiqələrin bir qismi Qarabağda təşkil oluna bilər.

# "Azərişıq" ASC tərəfindən yeni NFC sayğaclar istifadəyə verilir

"Azərişıq" ASC-nin Mətbuat xidmətinin məlumatına görə, NFC sayğaclara abonent mobil telefon ilə ödəniş edə bilər. Bununla da vətəndaş üçün ödəniş proseduru daha da rahat və asanlaşmış olur.

İstifadə üçün telefona "Azərişıq" mobil tətbiqi yüklənməlidir. Bu tətbiqdən istifadə etməklə balans artırılır, daha sonra yüklənəcək məbləğ qeyd olunur və telefonu sayğaca yaxınlaşdıraraq ödəniş edilir. Bu yenilik sayəsində abonent elektrik enerjisinin gündəlik sərfiyyatına da mobil telefonunda dəqiqliklə nəzarət edə biləcək.

NFC sayğacların digər müsbət tərəflərindən biri də odur ki, artıq "Azərişıq" ASC əməkdaşı tərəfindən ünvanda sayğacın aylıq oxunmasına da ehtiyac qalmır. Bu da abonentlə nəzarətçi arasında fiziki təması aradan qaldırır və şəffaflığı tam təmin edir.

Müasir texnologiyalardan istifadə, innovativ yeniliklərin tətbiqi "Azərişıq" ASC-nin əsas hədəfləri sırasındadır. NFC sayğacların istismara verilməsi də bu istiqamətdə atılan addımlardan biridir.

# Bərdə-Ağdam avtomobil yolunun tikintisi sürət götürür

Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatlar, sahibkarlığın dəstəklənməsi tədbirləri və dəstək mexanizmləri özəl sektorun inkişafına xidmət edir. Bu gün özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib, sahibkarlığın ÜDM-də və məşğulluqda payı artır.

Qarabağ və Şərqi Zəngəzur İqtisadi rayonları ərazisində icra olunan yol infrastrukturu layihələrindən biri olan Bərdə-Ağdam avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı məlumatda bildirilir ki, başlanğıcını Bərdə şəhərindən götürən Bərdə-Ağdam avtomobil yolunun uzunluğu 45 kilometr təşkil edəcək. Dövlət başçısının tapşırığına əsasən, Bərdə-Ağdam avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda Bərdə-Ağdam avtomobil yolunun 5-45-ci kilometrlik hissəsində torpaq işlərinin icrası davam etdirilir. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qrunt qazılaraq çıxarılır, genişləndirmə işləri aparılmaqla 26.5 metr enində yeni yol yatağı inşa edilir. Yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi işləri aparılır. Artıq bəzi hissələrdə əsasın tikintisi yekunlaşmaq üzrədir.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə 79 dairəvi suötürücü boru, 5 düzbucaqlı su keçidi, həmçinin zəruri olan yerlərdə 5 yeraltı keçidin tikintisi davam etdirilir.

Yolun 25 və 40-cı kilometrlik hissəsində inşa olunan 91.3 və 18.2 metr uzunluğa malik 1 aşırımlı körpülərin, həmçinin yolun 41-ci kilometrlik hissəsində 32.2 metrlik yol ötürücünün inşası da artıq yekunlaşmaq üzrədir. Bununla yanaşı, yolun 14-cü kilometrlik hissəsində 66 metr uzunluğa malik yeni yol qovşağının tikintisinə başlanılıb.

Yolun 29-cu kilometrliyində "Pit stop" (Dayan Dincəl) məntəqəsinin inşasına da start verilib.

1-ci texniki dərəcəli avtomobil yolu boyunca hərəkətin təhlükəsizliyini təmin etmək məqsədilə geriyə dönmə hissələrinin yaradılması, avtobus dayanacaqlarının inşası da həyata keçiriləcək.

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "54 N-li Yol İstismarı" MMC ilə subpodratçı şirkət olaraq "Körpü-Bina-Tikinti" MMC birgə icra edir.



Qeyd edək ki, Bərdə-Ağdam avtomobil yolu işğaldan azad edilmiş Ağdam şəhərinə qədər inşa edilir. Avtomobil yolunun ilk 14 kilometrlik hissəsi Bərdə şəhəri və rayonun bir neçə yaşayış məntəqəsinin daxilindən keçir. Ümumilikdə isə yol Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Dünya gündəmi

# II Elizabet növbəti kraliçanın adını açıqladı

## Böyük Britaniyada taxt-taca Kamilla Parker-Boulz sahiblənəcək

*Əvvəli 1-ci səh.*

Klarens Hausdan verilən məlumata görə, Uels şahzadəsi Çarlz və həyat yoldaşı bu qərardan məmnundurlar.

Çarlz və Kamilla 2005-ci ildə evləndiyi zaman nəzərdə tutulmuşdu ki, hersoginya Kral Əlahəzrətlərinin şahzadə-konsortu titulunu daşıyacaq. Ancaq bu, baş vermədi. Bunun səbəbi xalq arasında Kamillanın populyarlığının aşağı olması idi.

KİV xəbər verir ki, britaniyalılar Kamilla Parker-Boulzla şahzadə Çarlz arasında nikahdan kənar əlaqəni uzun müddət bağışlaya bilməyiblər. Lakin məlum olduğu kimi, şahzadə Çarlz çoxdan arzulayırdı ki, özü kral olanda onun xanımı kraliça tituluna yiyələnsin.

II Elizabet öz məktubunda şahzadə Çarlzın niyyətlərini dəstəklədiyini qeyd edib. Kraliça həmçinin bütün hakimiyyəti dövründə ona nümayiş etdirdiyi sədaqətə görə Britaniya xalqına da təşəkkürünü bildirib. "Mən bilirəm: oğlum Çarlz kral olanda o və xanımı da eyni dəstəyi alacaqlar", - deyə II Elizabet vurğulayıb.



Kornuol hersoginyası Kamillanın daşıyacağı kraliça-konsort titulu o deməkdir ki, kralın həyat yoldaşı onunla bərabər sosial statusa və onun monarxiya titulunun qadın ekvivalentinə malikdir, lakin ona regentin siyasi və hərbi səlahiyyətləri verilmir.

"The Guardian" qəzeti xatırladır ki, Kraliça II Elizabet Böyük Britaniya tarixində 70 il hökmranlıq edən ilk və yeganə monarxdır. Bu il aprelin 21-də onun 96 yaşı olacaq.

II Elizabetin həyat yoldaşı şahzadə Filip ötən ilin aprelində 99 yaşında vəfat edib.

Oğlu, Uels şahzadəsi Çarlz 1948-ci il noyabrın 14-də Britaniya paytaxtında dünyaya gəlib. Diana Spenserlə ilk nikahından Uilyam və Harri adlı övladları var.

Kornuol hersoginyası Kamilla 1947-ci il iyulun 17-də Londonda anadan olub. Birinci həyat yoldaşı Endrü Parker-Boulzla nikahdan 2 övladı, 5 nəvəsi var.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### struktur idarələrinə tələb olunan elektrik mal-materialların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 15 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1176.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### DND gəmiləri üçün müxtəlif elektrik mallarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1176.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### struktur idarələrinə müxtəlif təyinatlı mal-materialların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 14 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1176.

***Tender komissiyası***



# Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı gözlənilir

Azərbaycanda fevralın 8-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi əsəcək. Havanın temperaturu gecə Abşeron yarımadasında 0-3°, gündüz 7-10° isti, Bakıda gecə 0-2°, gündüz 7-9° isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, fevralın 8-də Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.

Azərbaycanın rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-12° isti, dağlarda 3-8° şaxta, yüksək dağlıq ərazilərdə 17°-dək şaxta, gündüz 1-6° isti olacağı gözlənilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir




güclənəcək. Havanın temperaturu gecə 5-10° şaxta, gündüz 8-13° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, bəzi yerlərdə 13°-dək şaxta, gündüz 1-6° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzurda - Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, dağlarda 18°-dək şaxta, gündüz 1-6° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 7-12° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-12° isti, dağlarda gecə 5-10° şaxta, yüksək dağlıq ərazilərdə 17°-dək şaxta, gündüz 0-5° şaxta olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-12° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti, dağlarda gecə 0-3° şaxta, gündüz 5-8° isti olacaq.



# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | | |
|---|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 | *1 illik* 124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 | |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 | *6 aylıq* 62,40 (altmış iki manat qırx qəpik) manat |
| *"Səma-M" MMC* | (012) 594-09-59 | |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 | *3 aylıq* 31,20 (otuz bir manat iyirmi qəpik) manat |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 | |
| *"City press" MMC* | (055) 819-09-26 | |

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
### *açıq tender elan edir*

LOT - 1. Mənzil-kommunal xidmətlərinin göstərilməsinin təmin edilməsi məqsədi ilə tələb olunan müxtəlif növ malların alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. (Əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05) ala bilərlər:

İştirak haqqı: **800,00 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra azı 35 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 65 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *Müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *Mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri 11 mart 2022-ci il saat 11: 00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev 17 ünvanına 30 mart 2022-ci il saat 18:00-a qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri 31 mart 2022-ci il saat 11:00-da Nəcəfqulu Rəfiyev 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***






# ANAMA: Ötən həftə 51,3 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, fevralın 1-dən 5-dək Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 7, tank əleyhinə 10 mina və 42 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 51,3 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Hərbi prokurorluğun İstintaq idarəsinin rəisi Bəhruz Əhmədova atası

**VİDADİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi qocaman energetik

**XALİD İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ağdamdan Vaqif Həsənov "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanova atası

**QƏNBƏR QURBANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki Apellyasiya Məhkəməsinin kollektivi məhkəmənin hakimi Elçin Hüseynova qardaşı

**RAMAZAN ŞİRİNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5415
Sifariş 380
Qiyməti 40 qəpik